www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 dekabr 2016-cı il Cümə № 268 (6589) Qiymətı 60 qəpik

**Xəbər**

## Toya hazırlaşan biznesmen oğlu qəfil öldü

yazısı səh.6-da

**Gündəm**

### Büdcə müzakirələrində ikinci gün-hökumətlə pul davası



Deputatlar elm, təhsil və mədəniyyətə ayrılan vəsaitin artırılmasını istədilər; Hesablama Palatası iqtidarın siyasətinə zidd siyasətdə suçlandı

yazısı səh.7-də

### İşğal ortaqlarından Azərbaycana ortaq təhlükə

yazısı səh.11-də

### İqtidarın ən yaxşı müttəfiqi-müxalifət...

yazısı səh.10-da

### Heydər Babayev federasiya rəhbərliyindən çıxarıldı

yazısı səh.6-da

### Ərdoğanla Putin arasında telefon diplomatiyası-üçüncü zəng

yazısı səh.12-də

### Maliyyə naziri ittihamlara niyə cavab vermir?

yazısı səh.13-də

### İrəvanda panika: Azərbaycan Ermənistana gedən qaz kəmərini ala bilər

yazısı səh.12-də

### Baxçalının Türk Birliyi təklifinə Azərbaycandan reaksiya

yazısı səh.13-də

### Siqaret bahalaşdı- qapalı məkanlarda tütün qadağası yenə gündəmdə

yazısı səh.14-də

### İşığın qiyməti ilə bağlı yeni qaydaların tətbiqinə başlandı

yazısı səh.6-da

### Qubad İbadoğlunun təşkilatı qeydə alınmadı

yazısı səh.10-da

## Sabiq bank rəhbəri növbəti müqavimətə başladı

# CAHANGİR HACIYEV MÜXALİFƏTƏ KEÇDİ - MƏKTUBUNUN SİRLİ KODLARI

Beynəlxalq Bankın keçmiş rəhbərinin indi sanki təkbaşına direniş göstərdiyi rəyi yaranır, amma heç şübhə yoxdur ki, onun arxasında dayanan qüvvə var; bu isə təkcə Eldar Mahmudov olmaya bilər; Hacıyev təkcə maliyyə nazirini deyil, dışlandığı sistemi hədəfə alıb...



yazısı səh.5-də

## Akif Çovdarovun oğlu "Yeni Müsavat"a danışdı - sensasion açıqlamalar

**Ruslan Çovdarov:** "Sizcə, Akif Çovdarovla bağlı ölüm işi olsaydı, bunun üçün də saxta şahidlər tapıb, onun üzünə qoymazdılarmı?"

yazısı səh.3-də



### "O meydana çıxıb, vuruşub, öləræm, təki..." - Adil Əliyevin heç yerdə deməidyi açıqlamalar

yazısı səh. 8 və 9-da



### Həbsdəki müavini yanan binaya görə Xaləddin İsgəndərovu "nişan verir"

yazısı səh.5-də



Şeyx Həmzət

### "Rövşən Lənkəranski"nin varidatı çeçen "qanuni oğru"ya qaldı

yazısı səh.4-də



## İlham Əliyev yenidən MOK prezidenti seçilib

**Milli Olimpiya Komitəsində (MOK) Hesabat-Seçki Konfransı keçirilib. Azərbaycan prezidenti İlham Əliyev yenidən MOK prezidenti seçilib. Bunu jurnalistlərə açıqlamasında qapalı keçən iclasdan sonra gənclər və idman naziri Azad Rəhimov deyib.**

O bildirib ki, konfrans iştirakçıları yekdilliklə 1997-ci ildən bu vəzifədə olan İlham Əliyevə səs veriblər: "İdman ictimaiyyəti adından idmançıların əsl mənada böyük dostu, idmana dəstək olan cənab prezidenti təbrik edirik. Bugünki nailiyyətimizə təkan verən insandı".



## Şeyx İrana gedir

**"İki gün sonra İranın Tehran şəhərində ayətullahlar, din və dövlət adamları ilə görüşəcəyik". APA-nın xəbərinə görə, bunu Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə deyib.**

O bildirib ki, İranda baş tutacaq görüşlər dekabrın 1-də Bakıda "Qafqazda dini tolerantlıq ənənələri və Azərbaycanda multikulturalizm modeli" mövzusunda keçirilmiş konfransın bir növ davamı olacaq.

QMİ sədri qeyd edib ki, son vaxtlar Rusiya, İran və Azərbaycanın dövlət rəhbərləri arasında görüşlər keçirilir: "Din xadimləri də bu üç dövlət arasında gələcək qonşuluq və dostluq münasibətlərinə öz töhfələrini verəcəklər".

## Gürcüstanda Azərbaycan dilində radio fəaliyyətə başlayıb

**Gürcüstanda azərbaycandilli media "Marneuli" radiosu lisenziya alıb. (APA). Radio dekabrın 1-dən etibarən internet üzərindən yayıma başlayıb. "Marneuli" radiosu yeni il günü 96,9 FM tezliyində yayıma başlayacaq.**

Qeyd edək ki, radionun 14 nəfərdən ibarət kollektivi var.

Xatırladaq ki, Gürcüstanda 1 ay öncə Azərbaycan dilində mediaya qadağa aradan qaldırılıb.



## Azad Rəhimov Formula 1-lə bağlı məsələyə aydınlıq gətirdi

**Gənclər və idman naziri Azad Rəhimov 2017-ci il üçün Formula 1 təqvimində Bakıda keçiriləcək Qran Prinin adının və vaxtının dəyişdirilməsinə də münasibət bildirib.**

Modern.az-ın xəbərinə görə, nazir jurnalistlərə açıqlamasında Beynəlxalq Avtomobil İdmanı Federasiyasının qərarının Azərbaycana bir neçə üstünlük verdiyini deyib.

Nazir bildirib ki, gələn il iyunun 25-də dünyanın Formula 1 həvəskarlarının marağı yalnız Azərbaycana yönələcək:

"Ölkəmizdə bu yarış ikinci dəfə keçiriləcək. Yenilik və dəyişiklik ondan ibarətdir ki, Avropa Qran Prisi yox, Azərbaycan Qran Prisi adlanacaq. İkinci böyük dəyişiklik odur ki, yarış iyunun 25-də keçiriləcək.

Yəni bu Qran Pri "24 saat Le Man" marafonu ilə üst-üstə düşməyəcək və maraq paytaxtımızdakı yarışa yönələcək. Daha bir üstünlük isə maşınlar və avadanlıqların Kanadadan vaxtında gətirilməsidir. Qısa müddətdə 6-7 böyük transfer təyyarəsinin boşaldılması ilə bağlı problemlə üzləşməyəcəyik".

# ABŞ-ın ticarət üzrə rəsmisi prezidentlə görüşdü



**Prezident İlham Əliyev dekabrın 1-də ABŞ-ın ticarət nazirinin Avropa, Orta Şərq və Afrika üzrə müşavirinin müavini Maykl Lallinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

APA-nın məlumatına görə, görüşdə iştirak edən ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Robert Sekuta ölkələrimiz arasında iqtisadi əlaqələrə toxunaraq enerji sahəsində uğurlu əməkdaşlıq həyata keçirildiyini vurğulayıb.

Səfir Bakıda keçirilən ilk Azərbaycan-ABŞ biznes forumunun əhəmiyyətini qeyd edərək bu tədbirin ölkələrimiz arasında biznes əlaqələrinin qurulması üçün yaxşı imkanlar yaratdığını deyib. O bu forumda əsas məqsədlərdən birinin Azərbaycanın üzləşdiyi çağırışların həlli yollarının müzakirəsindən ibarət olduğunu bildirib. Səfir dünyada neftin qiymətinin kəskin dəyişməsinin də iqtisadi vəziyyətə təsir etdiyini vurğulayıb. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından 25 il keçdiyini vurğulayan səfir bu illərdə Azərbaycanın ABŞ üçün güclü tərəfdaş ölkə olduğunu bildirib və ölkəsinin Azərbaycanda baş verən bütün müsbət dəyişiklikləri yüksək qiymətləndirdiyini deyib.

Ölkələrimiz arasında iqtisadi əlaqələrə toxunan prezident energetika sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini, mühüm enerji layihələrinin sürətlə həyata keçirildiyini qeyd edərək hazırkı şəraitdə əsas diqqətin qeyri-neft sahəsində də əməkdaşlığa yönəldilməsinin önəmini vurğulayıb və ABŞ-la ölkəmizin qeyri-neft sektorunda daha fəal əməkdaşlığının həyata keçirilməsinin əhəmiyyətini qeyd edib. Dövlət başçısı ABŞ-ın Azərbaycanın qeyri-neft sektoruna daha çox investisiya qoymasında ölkəmizin maraqlı olduğunu deyib və daha çox praktiki nəticələrin əldə edilməsinin vacibliyini bildirib. Bu baxımdan, prezident ABŞ-ın orta və kiçik sahibkarlıqla məşğul olan şirkətlərinin Azərbaycanı daha çox tanımaları ilə bağlı təqdimatların keçirilməsinin önəmini qeyd edib.

Maykl Lalli isə ABŞ-ın ticarət naziri Penni Pritzkerin salamlarını dövlət başçısına çatdıraraq, onun Azərbaycan-ABŞ biznes əlaqələrinə prezident İlham Əliyevin verdiyi dəstəyi yüksək qiymətləndirdiyini deyib. O, həmçinin Penni Pritzkerle prezident arasında görüşün çox konstruktiv şəkildə keçdiyini vurğulayıb.

## DİN PKK-çı kimi təqdim olunan şəxsin həbsinə aydınlıq gətirib

**Daxili İşlər Nazirliyi mətbuatda Abdulla Öcalanın təbliğatçısı kimi təqdim edilən Laçın rayon sakini Müqabil Baxışovun həbsinə aydınlıq gətirib.**

Nazirliyin mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə APA-nın sorğusuna cavab olaraq deyib ki, M. Baxışov ayrı-ayrı vaxtlarda Laçın rayonunun dörd sakininin etibarından sui-istifadə etməklə və aldatma yolu əmlakını ələ keçirib. O, həmin şəxslərə ailə üzvlərini işə düzəltmək və digər bu kimi vədlər verməklə 4 min manata yaxın ziyan vurub.

O. Mansurzadə qeyd edib ki, həmin vətəndaşlardan daxil olan şikayət ərizələri əsasında Laçın Rayon Polis Şöbəsinin istintaq qrupunda fakt üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb, məhkəmənin qərarı ilə də M. Baxışov barəsində həbs-qətimkan tədbiri seçilib.

Qeyd edək ki, Müqabil Baxışov bundan əvvəl də məhkumluq həyatı yaşayıb. O, 2012-ci ilin oktyabrında Ağcabədi Rayon Məhkəməsinin qərarı ilə xuliqanlıq maddəsi ilə təqsirli bilinərək 3 il müddətinə azadlıqdan məhrum edilib. Sonra isə barəsində 1 il 6 ay müddətinə şərti sınaq müddəti tətbiq edilib.

Onu da əlavə edək ki, M. Baxışov mülki öhdəliklərin icrasından yayındığı üçün də Ağcabədi Rayon Polis Şöbəsi tərəfindən axtarışa verilibmiş.

## 37 yaşlı keçmiş məhkum üzərinə benzin tökərək özünü yandırıb

**Bakıda 37 yaşlı kişi üzərinə benzin tökərək özünü yandırıb. Hadisə Sabunçu rayonu R.Axundov küçəsi, 10 ünvanında qeydə alınıb. ("Report")**

Belə ki, 1979-cu il təvəllüdlü Fərzani Cəbrayılov üzərinə benzin tökərək özünü yandırmaqla intihara cəhd edib. F.Cəbrayılov yanıq xəsarətləri alaraq Respublika Yanıq Mərkəzinə yerləşdirilib. Onun dindirilməsi mümkün olmadığından intihara cəhd etməsinin səbəbləri bilinmir.

Qeyd edək ki, F.Cəbrayılov əvvəllər məhkumluq həyatı yaşayıb.

## XİN rəhbərləri görüşə bilər

**Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan Hamburqda Azərbaycan XİN başçısı Elmar Məmmədyarovla görüşəcəyini istisna etməyib.**

Bu barədə Ermənistan KİV-inə istinadən xəbər verilir.

"Görüş olacağını istisna etmirəm, amma hələlik bu barədə razılaşma yoxdur" - E.Nalbəndyan "Azadlıq" radiostansiyasının efirində bildirib.

Xatırladaq ki, daha əvvəl ATƏT-in Minsk Qrupunun həmsədrləri dekabrın 8-9-da Hamburqda keçiriləcək ATƏT Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində görüş planlaşdırdıqlarını açıqlayıblar.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Hamburqda görüşməyə hazır olduqlarını, lakin Ermənistan tərəfinin hələ cavab vermədiyini vurğulayıb.



## Bakıda yağış, rayonlarda qar yağacaq

**Dekabrın 2-də Bakıda və Abşeron yarımadasının bəzi yerlərində arabir yağış yağacağı, günün ikinci yarısında dəyişkən buludlu olacağı gözlənilir. Virtualaz.org Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, arabir zəif duman olacaq. Şimal-qərb küləyi gündüz mülayim cənub-qərb küləyi ilə əvəz olunacaq, arabir güclənəcək.**

Havanın temperaturu yarımadada gecə 3-5° isti, gündüz 8-12° isti, Bakıda gecə 3-5° isti, gündüz 9-11° isti olacaq.

Azərbaycanın rayonlarında arabir yağış, dağlıq və dağətəyi rayonlarda sulu qar, qar yağacağı gözlənilir. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 0-5° isti, gündüz 7-12° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 2-6° isti olacağı gözlənilir.

Tibbi-meteoroloji proqnoza gəlincə, dekabrın 2-dən 4-dək Abşeron yarımadasında atmosfer təzyiqinin xeyli tərəddüdü, arabir güclənən gilavar və xəzri küləklərinin bir-birini əvəz etməsi bəzi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

## QİÇS-in qorxudan statistikası

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) bildirdiyinə görə, ilk dəfə olaraq Avropa regionunda QİÇS hallarının məcmu sayı 2 milyonu keçib. Ötən il 153 mindən çox yeni QİÇS halı qeydə alınıb. Göstərici əvvəlki illə müqayisədə 7 faiz artıb.**

Bu barədə virtualaz.org saytına BMT-nin Bakı ofisindən məlumat verilib.

Xəbərdə deyilir ki, artım 1980-ci illərdə hesabatın başlanmasından bəri ən yüksək illik göstəricidir.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının üzv dövlətləri 1988-ci ildə Dünya QİÇS Gününü təsis ediblər. Dünya QİÇS Günü İİV/QİÇS haqqında məlumatlılığı artırmaq və pandemiya qarşısında beynəlxalq həmrəyliyi göstərmək üçün hər il dekabrın 1-i qeyd olunur.

Avropa ÜST Regional mudiri Zsuzsanna Cakab bütün dünyanı virusla mübarizəyə səsləyib.

Qərbi Avropa ölkələrində virusa yoluxma 18 faiz olub. Mərkəzi Avropa ölkələrində isə bu rəqəm 3 faiz təşkil edib.

YENİ MÜSAVAT
N 268 (6889) 2 dekabr 2016

# Akif Çovdarovun oğlu danışdı: "Atamla bağlı formalaşdırılan imic..."

## Ruslan Çovdarov: "Sizcə, Akif Çovdarovla bağlı ölüm işi olsaydı, bunun üçün də saxta şahidlər tapıb, onun üzünə qoymazdılarmı?"

**Son bir neçə ayda mətbuatın barəsində ən çox yazdığı şəxs heç şübhəsiz ki, hazırda məhkəməsi davam edən MTN generalı Akif Çovdarovdur. Elə gün olmur ki, məhkəmədə ifadə verən zərərçəkmişlər onun barəsində sensasion ittihamlar səsləndirməsin, istintaq onun əməlləri ilə bağlı yeni detalları cəmiyyətə açıqlamasın.**

*Amma bu məlumatlardan ən çox narazı qalan A.Çovdarovun ailə üzvləridir. Xüsusən də oğlu Ruslan Çovdarov sosial şəbəkədəki statusunda zaman-zaman öz etirazını səsləndirir. "Yeni Müsavat" bu narazılıqları səsləndirməsi, eləcə də bizim suallarımıza cavab verməsi üçün bir neçə gün sosial şəbəkə vasitəsilə müsahibə üçün israr etdi. Bir gün məhkəmə, başqa bir gün atası ilə görüş... Söhbətimiz uzansa da, axırıncı dəfə "mən bu gün atama istədiyi kitabları almaq üçün kitab mağazasına gedəcəm, vaxtım yoxdur", cavabını verdi. Dediyi saatda AVM-lərdən birində yerləşən kitab mağazasına getdik və budur, üz cizgiləri eynən A.Çovdarova bənzəyən gənc Çovdarov kitab seçir. Detektiv kitab bölməsində... Bunun özü də bir başqa söhbətin mövzusudur.*

*Ruslan bəylə bulvardakı çayxanalardan birində oturub, bizi, sizi maraqlandıran bütün suallara cavab tapmağa başladıq. Təbii ki, öncə atasının səhhəti barədə danışdıq.*

***- Çoxdandır atanızla görüşmək imkanı əldə etmirdiz. İndi vəziyyəti necədir? Necə keçdi görüş?***

- Görüş üçün müəyyən edilmiş vaxt olur. Ayda iki-üç dəfə, 10 gündən bir... Sağ olsunlar, atamın səhhətini nəzərə alıb, görüş təşkil edirlər. Dünən də görüşdüm. Bildiyiniz kimi, səhhəti çox pisdir. Başlatdığı aclıq aksiyası davam edir. Bu insan gün ərzində 200-250 qram su içir. Görə də bilərlər, bir qram sovqat da aparmırıq. Atam ancaq su içir. Buna da səbəb odur ki, ağrıkəsici dərmanlar qəbul edir. Susuz olmaz.

***- Yeməkdən imtina edib...***

- Bəli, tələbləri yerinə yetirilmədiyinə görə. Bu gün onu ayaqda saxlayan sudur.

***- Nə qədərdir davam edir bu aksiyası?***

- Bir ay olar.

***- Oxuculara xatırladaq. Nədir tələbləri?***

- Səhhəti ilə bağlı ekspertiza keçirilsin. Ekspertizada öz yerli həkimlərimizlə yanaşı, xaricdən də həkimlər iştirak etsinlər. Xaricdən həkimləri öz vəsaitimiz hesabına gətirməyi təklif etmişik. İstər Türkiyə, istər Gürcüstan, istər Rusiya olsun. Amma daha yaxşı olardı ki, Almaniyada onu əməliyyat edən xəstəxananın həkimini də gətirtsinlər. Amma məhkəmə onun bu vəsatətini təmin etmədi, razı olmadılar.

***- Ailə üzvlərinizin müsahibəsindən belə aydın olur ki, Akif Çovdarovun səhhəti kritikdir. Ödü çıxarılıb, bəzi orqanları köçürülmədir. Niyə belədir ki, mənzərə? Səhhəti niyə bu formadadır?***

- Əlbəttə. Onun köynəyinin qabağını açan hər kəs sinəsində əməliyyatların yerini görər, heç epiqrizə də ehtiyac qalmaz. Boğazından aşağıya qədər kəsiyi var. 2006-cı ildə ürəkdən, şuntlama əməliyyatı keçirib. Dörd damarı dəyişdirildi. Ondan sonra iki dəfə şok vəziyyətinə düşdü, şok aparatı ilə ayıltdılar. Bu yaxınlarda ürək ritminin pozulmasından əziyyət çəkirdi. Almaniyada olanda həkimlərə müraciət etdik. Dedik ki, ürək ritminin düzənlənməsi üçün şok aparatından istifadə etsinlər. Həkimlər bizə bunu etməməyi məsləhət gördülər. Dedilər ki, şok aparatından istifadə etsək, ayılmaya bilər. Sonra 2011-ci ildə mədəsinin yuxarı hissəsində onkoloji xəstəlik tapıldı. Əvvəl fikirləşdik ki, mədəsinin həmin hissəsini götürsünlər. Amma iki-üç ay həkimlər kimya terapiyası ("ximoterapiya") məsləhət gördülər. Ondan sonra isə həkimlər mədəni bütöv götürməyi uyğun bildilər. Mədəsi bütöv götürüldü. Ödü də yaxşı işləmirdi. Həkimlər dedilər ki, o ki əməliyyata girir, ödü də işləmir, elə ödünü də birdəfəlik götürək.

### "Yoldan keçən adamları tutub, Akif Çovdarovun üzünə qoyurlar"

***- O zaman daim dərmanlarla yaşayırdı...***

- Əlbəttə. İşdə olanda evdən xüsusi yeməklər hazırlanıb göndərilirdi. Xəstəliyi ilə əlaqədar həkimin məsləhət gördüyü, pəhriz xarakterli yeməklər. Tez-tez, az-az yemək... Dərmanları da onun kimi. Daim həkim nəzarətində idi. Amma indi təəssüf ki, bizim onun durumunu əvvəlki kimi həssaslıqla nəzarət altında saxlamağımız mümkün deyil. Həftədə bir dəfə ona yemək aparırıq. Həmin boyat yeməyi həftə boyu yeyə bilməz. Mədəsi də yoxdur. Bağırsaq birbaşa qida borusuna birləşdirilib. Bu halda da ona boyat yemək və ya qeyri-ev yeməyi olmaz.

***- Atanızın adı bizə, mətbuata illər öncədən tanış idi. Elmar Hüseynovun qətli, Aqil Xəlilin döyülməsi məsələlərində adı ən çox hallanan şəxslərdən idi. Biz onun fotolarını da məhz Aqil Xəlil döyülən ərəfədə gördük və yaydıq. Öncə onu soruşum: atanızla bağlı mediada yaranan imiclə razısızmı? Onun həqiqi imicinə nə qədər uyğundur?***

- Deyərdim ki, atamla bağlı formalaşdırılan imic onun gerçək imici ilə tamamən ziddiyyət təşkil edir. Açığı, mən o adını çəkdiyiniz şəxslərlə, olaylarla bağlı rəy vermək də istəmirəm. Çünki mənim bu işlərdən xəbərim yoxdur. Amma bir məqamı nəzərinizə çatdıracam: ittiham aktları hər birinizdə var. İttihamların içində nə ölüm işi, nə adam bıçaqlama, nə yaralama işi yoxdur. Məhkəmələrin gedişindən də görürsüz. O qədər "zərərçəkən"lər üzə çıxıb ki. Hələ bundan sonra da çıxacaq. Az qala yoldan keçən adamları tutub, Akif Çovdarovun üzünə qoyurlar. Sizcə, Akif Çovdarovla bağlı ölüm işi olsaydı, bunun üçün də saxta şahidlər tapıb, onun üzünə qoymazdılarmı? İlk növbədə bu məsələnin şişirdilməsində maraqlı olardılar.

***- Hər halda, bunlar siyasi işlərdir...***

- Bilmirəm. Mən versiyamı dedim.

***- Aqil Xəlil olayı mənim dəqiq yadımdadır. Jurnalist atanızın şəklini çəkmişdi və iddia etmişdi ki, onu "şnur"la boğmağa çalışan Akif Çovdarov idi. Yadınızdadır o hadisə?***

- Eşitmişdim. Mən o vaxt burda deyildim, amma eşitmişdim.

***- Atanızla bu haqda danışmışdız heç? O nə deyirdi bu haqda?***

- O məsələnin necəliyini bilmirəm. Amma siz özünüz təsəvvür edin ki, birincisi, bu adam MTN-də yüksək vəzifədə olan adam idi. Polkovnik idi onda. Aqil Xəlilsə onda heç jurnalist deyildi, "stajor" idi. Yəni siz nə dərəcədə ağlabatan hesab edirsiz ki, MTN-in polkovniki, canlı-cəsədli adam düşsün jurnalistin dalınca, onu tutub, döysün? Bu, mümkün idimi, sizcə?

***- Hər halda, həmin vaxt Aqil Xəlil çox təhlükəli bir hadisənin üstünü açmışdı və bu qəzəbə səbəb olmuşdu...***

- *(Etiraz edir)* Xanım, orda təhlükəli hansı hadisə var idi? Yazırdılar ki, Akif Çovdarov Zeytunluqda torpaqlar alır. İstintaq həmin vaxt da araşdırdı. Gedin siz də maraqlanın. Akif Çovdarovun adına Zeytunluqda torpaq sahəsi olubmu, varmı?

***- O vaxtdan bu vaxta qalarmı? Başqasının adına keçirmə ehtimalı da var...***

- Hər bir sənədin kökü var. Torpaq mənim adımadırsa, bunu sonradan kiminsə adına keçirirəmsə, onun kökündə qeyd olunur ki, əvvəl kimin adına olub. Ona görə də Aqil Xəlillə bağlı hadisəni mən jurnalist fantaziyası hesab edirəm. Populyarlaşmaq, süni ajiotaj yaratmaq üçün atamın adından istifadə etdilər. Aqil Xəlilin bıçaqlanmasına gəlincə, əgər gerçəkdən elə bir şey olsa, indi cinayət işində bu hadisənin də adı olardı. Əgər o gerçəkdən bıçaqlanmışdısa, gəlib şikayət edərdi.

***- Onun şikayətləri olub müvafiq orqanlara. Avropa təşkilatlarına...***

- Olubsa, cinayət işində adı olardı bu hadisənin. Mən bu olayı atama sığışdırmıram. İnanmıram ki, belə bir şey ola bilər.

***- Bəs Akif Çovdarovu əslində niyə həbs ediblər? Sizin versiyanız nədir?***

- Mən ona nə deyim? Bu, siyasi söhbətlərdir və mən buna qarışmayacam.

***- Hazırda atanızın davam edən məhkəməsinə jurnalistlər buraxılmır. Əvvəl belə versiya vardı ki, özü və ailəsi jurnalistlərin prosesdə iştirakını istəmir... Əslində ailənin bu məsələdə mövqeyi nədir?***

- Bizim vəkillər bir neçə dəfə vəsatət qaldırdılar ki, media prosesdə iştirak etsin. Amma vəsatət qəbul edilmədi. Medianın iştirakı mənim üçün də xoş olardı. İçəridə baş verənləri, yalançı zərərçəkmişlərin nə qədər saxtakar ifadə verdiklərini bütün ictimaiyyət görərdi. Bu gün jurnalistlər prosesdən çıxan vəkillərdən müsahibə alırlar. Amma vəkillər deyir ki, jurnalistlərə bir kitablıq söz danışırıq, gedib üç cümlə yazırlar. Bununla ictimaiyyətə necə məlumat verə bilərsiz ki, gerçəkdən içəridə nə baş verir? Ya da içəridə kiminsə adamı, diktofonu var. Onlar da istədikləri kimi yazıb verirlər məhkəməni.



### "Allaha şükür, birtəhər dolanırıq, acımızdan ölmürük, ..."

***- Hansı media orqanını nəzərdə tutursuz?***

- Özünüz yaxşı bilirsiz, kimlər məhkəməni necə yazır. Günün sonunda geniş yazan saytlar var. Özləri də etiraf edirlər ki, bizim içəridə müxbirimiz oturub, diktafonumuz var.

***- Bunun nəyi sizə ziyandır ki? İçəridə heç olmasa bir müxbir var və olanları yazır...***

- Ziyan odur ki, həmin media orqanları istədikləri kimi yazırlar. Nəyi istəsə, ixtisar edir, nəyi istəsə, əlavə edir.

***- Həmin məqamlara qayıdacağıq yenidən... Amma mən sizin barənizdə də danışmaq istəyirəm. Bu günə qədər Ruslan Çovdarovun adı mətbuata tanış deyildi. Son bir neçə ayda verdiyiniz müsahibələr və sosial şəbəkədəki aktivliyiniz sizi cəmiyyətə tanıtdı. Bəs bu günə qədər siz nə işlə məşğul idiz? Kimsiniz, təhsiliniz, işiniz... Qısaca özünüzü oxuculara tanıdın, mümkünsə...***

- 34 yaşım var. Mən son bir ildə heç bir işlərə qarışmırdım, yazılara reaksiya vermirdim, status paylaşmırdım. Amma son dövrlər cəmiyyətdə atamın adını ifrat dərəcədə şişirdib, onun barəsində qorxunc obraz yaratdılar. Bu zaman istər-istəməz insan bunu özünə sığışdırmır. Jurnalist yazısı oxunsun deyə, yazının içindən bir dəxli olmayan cümləni götürüb başlığa qoyur və yanlış rəy yaradır cəmiyyətdə. İnsanlar da çox vaxt başlığı oxuyur, yazının içinə baxmırlar. Beləliklə, səhv təəssürat yaranır atamla bağlı. Qorxunc adam kimi təqdim edirlər atamı. Çox adam da yazının başlığını görüb, atam barədə pis fikirlər, şərhlər yazır. Bir-iki dəfə fikrimi bildirdim bu barədə. Özümə gəlincə, atam vəzifədə olanda da, özüm vəzifədə olanda da çalışmışam hər zaman qalmaqaldan uzaq olum.

***- Harda təhsil almısız?***

- İqtisadiyyat Universitetində.

***- Xaricdə oxumamısız?***

- Xaricdə kurslarda olmuşam.

***- Mən sizin Oksford Streetdə şəkillərinizi görmüşəm sosial şəbəkədə. Düşündüm ki, yəqin təhsilinizdə bir Oksford izi də var.***

- Xeyr, orda MBA proqramlarında olmuşam. İkinci təhsilimi burda, Bakı Dövlət Universitetinin hüquq fakültəsində almışam.

***- Özünüzsə Milli Məclisdə sektor müdiri işləmisiz. 34 yaş üçün böyük vəzifə sayılır. Müsabiqədən keçmisiz, ya tanışlıq, atanızın əlaqələri vasitəsilə işə düzəlmisiz?***

- Birincisi, 34 yaş heç də az yaş deyil. İkincisi də, dövlət qulluğuna işə düzələndə müsabiqədən keçilir və mən keçdim. Mən də orda ilk növbədə məsləhətçi vəzifəsinə təyin edildim. Hər 5 ildən bir attestasiya keçirilir. Mən də o attestasiyanı keçdim. 2012-ci ildə iqtisadi qanunvericilik şöbəsində mülki hüquq üzrə qanunvericilik sektorun müdiri olmuşam.

***- Amma indi işdən çıxarılmısız...***

- Bəli.

***- Hadisələrdən dərhal sonra, ya necə?***

- *(Gülür)*. Hə, bu, bir qədər qarışıq məsələ oldu. Mən artıq dövlət işindən özüm çıxmaq istəyirdim ki, biznes və sahibkarlıqla məşğul olum. 2015-ci ilin may ayı idi. Şifahi də bildirmişdim işdən çıxmaq istədiyimi. Sonradan yazılı ərizəmi də yazmışdım.

***- O zaman MTN olayları baş verməmişdi...***

- Xeyr, may ayı idi hələ. Həmin vaxt həm evdən, həm də işdən mənim bu qərarıma etiraz etdilər. Atam da istəmirdi mənim işdən çıxmağımı. İşdə də razı deyildilər deyə ərizəm baxılmamış qaldı. 2015-ci il oktyabrın 20-21-i idi, dəqiq xatırlamıram, Eldar Mahmudov artıq vəzifəsindən çıxarılmışdı. Amma atam hələ işində qalırdı, 6-cı baş idarənin rəisi idi. Mənə Kadrlar Şöbəsinin rəisi zəng vurub görüşə çağırdı. Dedi ki, sizin ərizəyə artıq baxıldı, işdən çıxmaq istəyirsizsə, çıxa bilərsiz. Mənim özüm də çıxmaq istəyirdim, düzdür. Amma həmin anda olması mənə də təsir elədi. Sonucda öz ərizəmlə işdən çıxmış sayılıram. İşdən çıxarılanda atam vəzifədə ola-ola heç bir özünə hörmət edən telekanal etmədiyi hərəkəti ANS sensasiyalı xəbər etdi. "Ruslan Çovdarov işdən qovuldu", "Akif Çovdarov həbs edildi". Halbuki atam ondan sonra bir ay vəzifəsində qaldı. Ruslan Çovdarov nazir idimi və yaxud nə böyük vəzifəsi var idi ki, işdən çıxarılmağım ANS üçün bu qədər maraqlı mövzu olsun. ANS kanalında Akif Çovdarovla bağlı verilişə qədər belə hazırladılar. Hətta evinin qapısına qədər müxbirlərini göndərdilər. Niyə məhz Çovdarov? ANS-in bizim ailəyə vurduğu mənəvi ziyanı Allah bağışlamadı və nəticəsinin nə olduğuna da hamı şahid oldu.

### "ANS-in bizim ailəyə vurduğu mənəvi ziyanı Allah bağışlamadı və nəticəsinin nə olduğuna da hamı şahid oldu"

***- Bəs işdən çıxarılandan sonra nə işlə məşğulsuz?***

- Heç nə. Mən faktiki bir ildir ki, işsizəm.

***- Necə və nəylə dolanırsız?***

- Allaha şükür, birtəhər dolanırıq. Acımızdan ölmürük. İndi mənim də, ailəmizin də bir nömrəli qayğısı atamdır. Mənim yeni iş görməyə nə maddi imkanım var, nə də fiziki. Atam türmədədir, ailədən türmədə birinin olması isə ciddi qayğılar deməkdir. Dövlət işində işləmək isə... (gülür) Artıq mümkün deyil.

***-Evin tək oğlusuz. Amma ailə üzvlərinizin adı bu yaxınlarda mətbuatda daha çox hallandı. Daha çox əmlak siyahısı yayımlananda. Məlum oldu ki, bazarın yarı hissəsi bacınızın adına idi. Başqa əmlaklar ananızın, sizin adınıza olub və sair. Bu qədər əmlakı atanız ailə üzvləri arasında bölüb?***

*(davamı növbəti sayımızda)*

❑ Sevinc TELMANQIZI
Fotolar: Məhəmməd TÜRKMƏNİNDİR

YENİ MÜSAVAT
N 268 (6589) 2 dekabr 2016

# Çeçenlər və gürcülər "Lənkəranski"nin obyektlərini bölüşdürür

## Göyərti, tərəvəz və meyvə topdansatış bazarına gürcülər nəzarət edir, Avropadakı əmlaklarına isə "Şeyx Həmzət" sahibləndi

**Avqustun 18-də Türkiyədə öldürülən "qanuni oğru" Rövşən Canıyevin ("Lənkəranski") qatili və sifarişçisi tapılmasa da, onun maliyyə imperiyası uğrunda savaş qızışıb. Kriminal aləmdə miras uğrunda mübarizə təəccüblü deyil. Adətən hansısa nüfuzlu "qanuni oğru" öldürüldükdən sonra onun nəzarət etdiyi maliyyə mənbələri uğrunda kriminal savaşlar başlayır.**

"Lənkəranski"nin ən iri aktivi olan göyərti, tərəvəz və meyvə topdansatış bazarı artıq Merab Canqveladzenin ("Merab Suxumski") və qardaşının nəzarətinə keçib. Rusiya mənbələri iddia edir ki, Rusiyaya ömürlük gəlməsi yasaqlanan "Suxumski" bununla kifayətlənməyərək "Lənkəranski"nin Türkiyədəki biznesinə də göz dikib.

Türkiyədəki biznesinə çeçen "qanun oğru" Hüseyn Əhmədovun ("Kor Hüseyn") da iddialı olduğu bildirilir.

"Lənkəranski"nin Avropadakı bütün obyektləri isə "Şeyx Həmzət" ləqəbli çeçen "qanuni oğru" Həmzət Qastemirovun nəzarətinə keçib. Bu barədə "Sputnik" agentliyi Rusiya Federal Təhlükəsizlik Xidmətindəki mənbəyə istinadən bildirir.

Xəbər verildiyi kimi, bundan əvvəl "Lənkəranski"nin İtaliyanın Pozitano şəhərində 101 milyon avro nəğd pula iki lüks hotel -"Le Sirenuse" və "Hotel Covo dei Saraceni" hotellərini aldığı üzə çıxmışdı. Həmin hotellərdən biri kriminal avtoritetin qohumlarının, digəri "Şeyx Həmzət"in arvadının adına rəsmiləşdirilib. Lakin daha sonra onun vəkilləri digər hoteli də




məhkəmə yolu ilə "Lənkəranski"nin qohumlarından alıblar.

Məlumata görə, Qastemirovun getdikcə güclənən klanı Avropada kriminalın "obşak"ına nəzarət edir. Avropa ölkələrində onun topdansatış bazaları var. Bu bazalardan Rusiya bazarlarına mallar göndərilir. FTX-dəki mənbə deyib ki, Qastemirovun nəzarətindəki "obşak"ın aktivləri iri bankın aktivləri ilə müqayisə oluna bilər. Hazırda Rusiya DİN-də FTX-də Qastemirovun barəsində 37 cinayət dosyesi var.

Avropadakı "obşak"ın "Şeyx Həmzət"in nəzarətinə verilməsi məsələsi hələ "Şakro Molodoy" ləqəbli kriminal avtoritet Zaxari Kalaşovun Ermənistanda keçirdiyi "sxodka"da qəbul olunub. "Şakro" özü hazırda həbsdədir, iyul ayında həbs olunub.

Bildirilir ki, "Şakro"nun Avropadakı aktivləri-bukmeyker kontorları, Las-Veqasda kazino, Belçikada daş-qaş evi, iri Rusiya neft şirkətinin səhm paketi və digərləri də Şeyxin idarəçiliyindədir. Habelə Şeyx Avropada keçmiş sovet respublikalarından olan zərgərlərə "krışalıq" edir. Məlmata görə, Şeyx Las-Veqasdakı "Caesars Palace " kazinosunun 35 faizinin sahibidir. Bu, dünyanın ən iri otel-kazinolarından biridir. Çeçen mafiozun qüdrəti o qədər böyükdür ki, bu ilin avqust ayında onun ailə bayramında Al Paçino və Robert De Niro kimi Hollivud ulduzları da iştirak etmişdi.

Mənbə "Lənkəranski" dən miras qalan Almaniya və Hollandiya şirkətlərinin tam siyahısını da təqdim edib. Bura "Rainbow International B.V., Staay Food Group Holding, Fruit Company B.V. və Sonnen Frucht GmbH daxildir. Bu şirkətlər Avropadan Rusiya, Belarus və Ukraynaya meyvə-tərəvəz, ərzaq məhsulları ixrac edir. İki il əvvəl isə Lənkəranski Şeyxlə birlikdə Münhendəki "Hotel Sofitel Munich Bayerpost"u 82 milyon avroya alıb. Pulun 10 faizini Lənkəranski qoyub, lakin hazırda bu hotel də tamamilə Qastemirovun nəzarətindədir.



Şeyx Həmzət

Bir neçə gün əvvəl kriminal aləmdə "Hacı Beyləqanski" kimi tanınan "qanuni oğru" Hacıbaba Talıbxanlının Türkiyədə azadlığa buraxılması xəbəri yayılıb. Xatırladaq ki, o, Türkiyənin hüquq-mühafizə orqanları tərəfindən saxlanılmışdı. "Beyləqanski" son illər R.Lənkəranskinin ən yaxın adamlarından biri hesab olunurdu.

❑ **ORXAN**

# Elman Rüstəmovun susmasına səbəb olan sənədin mahiyyəti nədir?

## Baş bankir açıqlamadığı təkliflərin dövlət başçısına təqdim ediləcəyini deyir, ekspertlər isə həmin sənədi sadəcə söz yığını hesab edir




**Ölkənin maliyyə və bank sistemində durumun kritikliyi rəsmi səviyyədə açıqlanmasa da, müxtəlif problemlərdən dolayı narahatlıq ifadə olunur. Son olaraq Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Elman Rüstəmov problemləri həll etmək üçün hansısa sənəd üzərində iş aparıldığını və buna görə də susduqlarını bildirib. "Bank sektoruna kifayət qədər vəsait də versək, bu gün bank sektoru onu qəbul etməyə hazır deyil. Çünki o, sabit deyil, onun ötürücülük qabiliyyəti doğru deyil. Tezliklə bank sektrorunda sabitliyin bərpa olunması, bank kreditlərinin aktivliyinin bərpa olunmasına çalışırıq",- deyə, o qeyd edib. (fins.az)**

Baş bankirin sözlərinə görə, əsas prioritet sabitləşdirmədir: "Sabitlik yoxdursa, insanlar da, müəssisələr də öz gəlirlərini itirir və dövlət də öz gəlirlərindən məhrum olur. Ona görə də sabitləşdirmə ilə insanların, müəssisələrin, dövlətin gəlirlərini itirməsinin qarşısını almalıyıq. Əgər sabitliyə nail olmasaq, heç bir investor bizə inanmayacaq. Nə xarici, nə də daxili investor qeyri-müəyyənlikdə investisiya etməyəcək". AMB sədri hesab edir ki, hökumətin, Mərkəzi Bankın diqqətinin fokuslandığı əsas məsələ Maliyyə Nazirliyi ilə birlikdə makroiqtisadi sabitliyin tezliklə bərpa olunması ilə bağlıdır və bununla artıq yeni inkişaf strategiyasına keçidin, maktroiqtisadi artımın bərpa olunması, yeni inkişafın və iqtisadi artımın təmin olunmasıdır: "Bu istiqamətdə, xüsusilə Maliyyə Sabitliyi Şurası çox ciddi iş aparır. Yaxın dövrlərdə yekunlaşdırıb prezidentə təqdim edəcəyik. Fevral ayından bazara intervensiya etmirik. Amma müəyyən idarəetmə var. Biz əmin deyilik ki, idarəetməni götürsək manatın məzənnəsi ilə bağlı nə baş verər. 2017-ci ildə makroiqtisadi sabitliyin möhkəmlənməsi, manatın məzənnəsinin sabitləşməsi, təsbit olunması, buradan gedən yol qiymətlərinin sabitliyi, bundan sonra makroiqtisadi siyasətin sərtliyinin azaldılması, inkişafa doğru gedən inkişaf strategiyasına keçmək üçün kifayət qədər imkanlarımız olacaq".

**AMB başçısı, bununla yanaşı bildirib ki, tədiyyə balansının mənfi saldosu əsasən kapitalın hərəkəti ilə bağlıdır:** "Tədiyyə balansının bu il gözlənilən 5 milyard dollarlıq mənfi saldosu əhəmiyyətli rəqəmdir. Onun 88-90 faizi məhz kapitalın hərəkəti ilə bağlıdır. Yəni keçmişə götürülmüş borclar var, digər tərəfdən isə gələcəkdə çox böyük layihələr həyata keçiriləcək ki, ondan böyük gəlirlər götürücəyik".

**Ekspertlər E.Rüstəmovun dediklərini musavat.com-a detallı şəkildə şərh etməyə çalışıblar. Ekspert Əkrəm Həsənov bildirib ki, bu sənəd iqtisadiyyatın inkişafının "yol xəritəsi" ola bilər:** "Bu ilin martında dövlət başçısı bunun üçün altı ay vaxt vermişdi. Üstündən 9 aya yaxın keçib, indiyə kimi sənəd hazırlanmayıb. Bu gizli saxlanılan "yol xəritəsi"nin bəzi detallarından xəbərdaram, məlumatım var ki, sənədi necə hazırlayıblar və nələr yazılıb. Bu, daha çox keçmiş SSRİ dövründəki planlar kimi bir şeydir. Kənd təsərrüfatı, informasiya texnologiyaları və bir çox başqa sahələrlə bağlı təkliflər, görüləcək işlər var burada. Yəni "onu da edəcəm, bunu da edəcəm" səviyyəsində bir söz yığını və planlardır. İqtisadiyyatı necə inkişaf etdirməklə bağlı reallığa uyğun olmayan fikirlərdir. Mən əsas fikri orada görmədim, planda yoxdur. Birincisi, bu qədər sahəni birdən-birə inkişaf etdirmək mümkün deyil. Biz Rusiya, Qazaxıstan deyilik ki, bütün sahələri inkişaf etdirək. Konkret bir neçə sahəni götürüb, o sahələrdə yardım olunmalı və inkişafa nail olunmalıdır. Dövlət bu sahələrdə də kömək göstərməlidir. Amma bundan başqa, qeyri-neft sektoruna, sahibkarlar üçün şərait də olmalıdır. Sahibkarlar üçün çətin şəraitdir. Onlar üçün vacib olan ilk növbədə məhkəmələrin müstəqil və obyektiv olmasıdır. O sahədə planda heç nə görmədim. Bu gün əgər Azərbaycanda hakimin maaşı 2 min dollar deyilsə, ondan necə gözləyək ki, sahibkarın hüquqlarını müdafiə edəcək? Təbii ki, etməyəcək. Planda bununla bağlı heç nə yoxdur. O ki qaldı Elman Rüstəmovun maliyyə sektoru ilə bağlı, maliyyə sabitliyi ilə bağlı fikirlərinə, real deyil. Sabitliklə bağlı deyə bilərəm ki, əgər Elman Rüstəmov bununla özü məşğuldursa, onun komandasıdırsa, sual olunur ki, niyə indiyə kimi bunu etmirdi, indi edir? Nəticə varmı? Nəticəyə necə inanmaq olar ki, indiyə kimi atdığı pis addımları bundan sonra atmayacaq? Yəni necə inanmalıyıq ki, bundan sonra onun və komandasının etdikləri yaxşı olacaq? Həmin o deyilən planın detalları məlum olmasa da, ümumi olaraq da heç nə barədə danışmağa dəyməz. Ona görə də mənə elə gəlir ki, bu da gözdən pərdə asmaq kimi bir şeydir, vəssalam".

**Deputat Vahid Əhmədov isə musavat.com-a bildirib ki, Elman Rüstəmovun hansı təkliflərdən danışdığı bəlli deyil:** "Detalları bilmirik ki, hansı təkliflərdən söhbət gedir. Mili Məclisdə büdcə müzakirələrində söhbətlər getdi ki, son vaxtlar ümumiyyətlə maliyyə sabitliyi dairəsi çox kiçilib, pul-kredit siyasətində müəyyən problemin olduğunu biz qabartdıq. Elman Rüstəmov da dedi ki, detalları açıqlamırıq, amma müəyyən tədbirlər planı hazırlayırıq. Məqsəd ondan ibarətdir ki, Azərbaycanda pul-kredit siyasətində, bank sistemində müəyyən stabilləşmə baş versin. Yəni stabilləşmə olsun ki, sonra müəyyən inkişaf planları ilə çıxış etsinlər. Amma mən hesab edirəm ki, bunlar hamısı paralel getməlidir. Stabilləşmə uzun müddət vaxt apara bilər. Bu da Azərbaycanda qeyri-neft sektoruna xüsusilə də ciddi manеə ola bilər. Ona görə stabilləşmə getməlidir. Bunu başa düşürəm. Hələlik bu yaxınlarda onu hiss etmirik ki, stabilləşmə nə vaxtsa qurtaracaq. Onlar tədbirlər planında nə nəzərdə tutublar, nə üzərində işləyiblər, bunu bilmirik, detalları bizə açıqlamadı. Zənnimcə, əsas söhbət pul-kredit siyasətindən, bankların sağlamlaşdırılması prinsipindən gedəcək. Çünki ölkədə inflyasiya on faizi keçib, ikirəqəmlidir. Pul-kredit siyasətində də müəyyən problemlər var. Bankların sağlamlaşdırma prosesi çox zəif gedir. Biz buna hələ nail ola bilməmişik. Biz bu problemlər ətrafında müəyyən tədbirlər planı işləyib hazırlamalıyıq. Düşünürəm ki, Elman Rüstəmovun dediyi sənəd bu istiqamətdə olacaq".

❑ **Röya RƏFİYEVA**

# Sabiq bank rəhbəri növbəti müqavimətə başladı

**Beynəlxalq Bankın İdarə Heyətinin keçmiş sədri, ötən ay məhkəmənin hökmü ilə 15 azadlıqdan məhrum edilən Cahangir Hacıyev həbsinin ildönümü ərəfəsi həbsxanadan geniş mətnli müraciət yayıb. Sabiq bankir "ictimaiyyətə müraciət" kimi təqdim edilən məktubunda yenə də özünün suçsuz olduğunu iddia edərək maliyyə naziri Samir Şərifovu hədəfə alıb, özünü az qala "təmiz bankir", "xalqa canı yanan əzabkeş kimi" təqdim etməyə çalışıb.**



# Cahangir Hacıyev müxalifətə keçdi - məktubunun sirli kodları

## Beynəlxalq Bankın keçmiş rəhbərinin indi sanki təkbaşına direniş göstərdiyi rəyi yaranır, amma heç şübhə yoxdur ki, onun arxasında dayanan qüvvə var, bu isə təkcə Eldar Mahmudov olmaya bilər; Hacıyev təkcə maliyyə nazirini deyil, dışlandığı sistemi hədəfə alıb...

C.Hacıyev uzun müddətə həbsə göndərilməsini əlbəttə ki, həzm edə bilmir, daima komfort həyat sürməsi səbəbindən indi həbsxana divarları arasında sıxılır. Hələ də Bakı İstintaq Təcridxanasında saxlanılan C.Hacıyevin müqavimət göstərməsi bu səbəbdən başadüşüləndir.

Maliyyə naziri ilə illərdir sürən düşmənçiliyi nəhayətdə onun acı sonluğu ilə nəticələndi. Vaxtilə dövlət büdcəsindən də çox maliyyəyə nəzarət etmiş, istədiyi kimi xərcləmiş C.Hacıyev indi yaranmış böhrana görə özünü qətiyyən suçsuz bilmir. Onun hədəfi isə ilk baxışdan göründüyü kimi, təkcə maliyyə naziri deyil, əslində dışlandığı sistemdir.

Məsələn, C.Hacıyev müraciətinin girişində iddia edir ki, yaranmış duruma görə əsas məsuliyyət "heç bir maliyyə siyasəti olmayan, eləcə də heç iqtisadi - maliyyə təhsili olmayan *(S.Şərifov Kiyev Dövlət Universitetinin beynəlxalq əlaqələr və beynəlxalq hüquq fakültəsinin Beynəlxalq iqtisadi əlaqələr bölməsini bitirib-"YM")* maliyyə nazirinin" üzərindədir. Yada salaq ki, 2006-cı ildə sabiq maliyyə naziri Əvəz Ələkbərov MTN şefinin yuxarılara "nazir Əli İnsanovla iş birliyində olub" kimi dosyesindən sonra işdən çıxarılmışdı ki, bunu illər sonra Ə.Ələkbərov özü də etiraf etmişdi. Amma C.Hacıyevlə hələ qohum olmasa da, artıq çox yaxın olan E.Mahmudov öz kadrını nazir postuna gətirə bilmədi. Üstəlik, yalnız prezidentə bağlılığı olan nazir sonradan onlara boyun əymədi. İndi açıq şəkildə olmasa da, C.Hacıyev maliyyə nazirinin təhsilini qabardır, həddini aşaraq "yanlış kadr təyin olunub" mesajını verir.

**C.Hacıyev bundan sonra suallara keçir:** "Haradadır Maliyyə Nazirliyinin iqtisadi-təhlükəsizlik siyasəti? Milli valyutanın möhkəmliyi, sabitliyi ölkənin iqtisadi təhlükəsizliyinin qarantıdır. İqtisadi təhlükəsizlik Maliyyə Nazirliyinin əsas fəaliyyətidir. Devalvasiyanı hansı iqtisadi qanunlar və meyarlar əsasında aparıb? Bu təxribat deyilmi? Yarıtmaz devalvasiya nəticəsində 11 bank bağlanıb, məgər bunun da günahkarı mənəm? Əhalinin banklardakı əmanətlərinin çox hissəsi batıb, Əmanətlərin Sığortalanması Fondu vəsait çatışmazlığından Mərkəzi Bankdan 500 milyon manat götürmək məcburiyyətində qalıb. Məgər bunun da günahkarı mənəm?"

C.Hacıyevin ritorik suallarında da hədəf ölkənin maliyyə sistemidir ki, ilyarım əvvələdək sabiq bankir də onun bir hissəsi idi. İndi isə dəyişən çox şey var və C.Hacıyevin hətta müxalifət susduğu bir vaxtda, iqtidar üçün ən həssas bir dönəmdə nəyi qabartdığını yaxşı bilir...

**C.Hacıyev 2015-ci ilin fevral ayında maliyyə nazirinin təklifi ilə manatın ilk devalvasiyasını yenə yada salır:** "Devalvasiyanın miqyası, ölçüsü, bankların və əhalinin buna hazırlanmaması bank sektorunu çökdürür, insanlara ağır təsir edir. Həmin devalvasiyada Azərbaycan Beynəlxalq Bankı (ABB) kapitalının ən azı 20-25 faizini (130-150 mln AZN) itirə bilərdi. Lakin ABB menecmenti tərəfindən görülən tədbirlər nəticəsində bu itki 7 milyon manat olur. Hər halda, ağır itkinin qarşısını ala bildik, 7 milyon manat qaçılmaz itki isə səriştəsiz devalvasiyanın qurbanına çevrilir. Halbuki bu zərəri də mənə aid edirlər".

C.Hacıyevin niyə devalvasiyadan belə möhkəm yapışmasının sirri var. Çünki istefaya göndərilməsinin əsas səbəbi də məhz devalvasiya, daha doğrusu, bu prosesdə qazandığı iddiasıdır. Xəbərlərdə deyilirdi ki, C.Hacıyevin istefaya göndərilməsinin kökündə məhz devalvasiyadan öncəki dollar alveri durur. Belə ki, bankir devalvasiya qərarından öncədən xəbərdar olub və iri kapital sahiblərinin sərəncamında olan manatı dövlətin sərəncamında olan dollarlarla dəyişib ki, bu da dövlətə çox baha başa gəlib. Bu alverdən Cahangir Hacıyev yüz milyonlar qazansa da, Mərkəzi Bank və səhm paketi dövlətə məxsus Beynəlxalq Bank xeyli ziyan çəkib. Mərkəzi Bankın sədri Elman Rüstəmov və maliyyə naziri prezidentə məruzəsində yaranmış situasiyaya görə C.Hacıyevin günahkar olduğunu bildirib və dövlətə nə qədər ziyan vurduğunu konkret rəqəmlərlə əsaslandırıblar. C.Hacıyev doğrudan da "devalvasiya məhbusu" hesab oluna bilər...

Yeri gəlmişkən, daha bir maraqlı məqam da diqqət çəkir. C.Hacıyev maliyyə sektorunda E.Rüstəmova heç vaxt güvənməyib, münasibətləri, yumşaq desək, pis olub, iddialara görə, qudasına arxayın olub heç baş bankiri saymayıb da. Amma nədənsə, həbsdən sonra E.Rüstəmovu düşmənləri sıyahısından çıxarıb. Elə son müraciətində də devalvasiyaya görə S.Şərifov qədər məsuliyyət daşıyan E.Rüstəmovun adını xatırlatmayıb. Ehtimal etmək olar ki, C.Hacıyev indi "iki cəbhədə" vuruşmağın mənasız olduğunu anlayıb və yalnız maliyyə nazirini hədəf seçib. Başqa bir ehtimal isə C.Hacıyevin baş bankirlə anlaşa bilməsi ola bilər. Çünki sirr deyil ki, elə E.Rüstəmovla maliyyə naziri də çoxdan yola getmirlər...

**C.Hacıyev bankın rəhbərliyindən uzaqlaşdırılandan sonra başlamış istintaqa da narazılığını bildirir:** "BMCMİ-də cinayət işi başlanır, çoxlu sahibkarlar həbs edilir, minlərlə vətəndaşa ölkəni tərk etmək qadağası qoyulur, minlərlə iş yerləri bağlanır, Beynəlxalq Bankın maliyyələşdirdiyi layihələr iflic olur, bankın və layihələrin idarəçiliyində xaos yaranır və kreditlərin ödənilməsi dayanır. Nəticədə bankların yaranan zərərlərini hazırda mənə aid edirlər".

**Həbsdəki bankir "hər devalvasiya vaxtı yaranan zərərlər mənim ünvanıma aid edilir" yazaraq, rəqəmlər sadalayır.** "Əvvəl 1 milyard manat, sonra 3 milyard, 6 milyard manat, indi də 10-20 milyard manat nağılı işə düşüb" deyə, o, narazılığını bildirir. Əlbəttə ki, C.Hacıyev uzun illərin təcrübəsində bank maxinasiyalarını, eləcə də maliyyə nazirinin offşorlarda pul "fırlada biləcəyindən" yaxşı xəbərdar ola bilir. Onu haqlı narahat edən səbəb isə "çox yüklənməsidir". Sabiq bankir ondan indi mənimsənilən puldan daha çox istənilməsinə etiraz edir.

Məlumdur ki, ümumilikdə C.Hacıyev və ailəsinə məxsus 184 milyonluq səhmlər Beynəlxalq Banka qaytarılıb. Amma bunlar heç məhkəmədə nəzərə alınmadı. İddialar var ki, C.Hacıyevdən qaytardığı məbləğdən bir neçə dəfə çox pulu da geri istəyirlər. Ona ağır cəza verilməsinin səbəbləri sırasında, deyilənə görə, bu israrı da var. Vaxtilə Fərhad Əliyevə də elə MTN bu cür bazarlıq təklif etmişdi, amma sabiq nazir israr etdiyi üçün 9 il həbsdə yatmalı oldu.

**C.Hacıyev də bu müraciətində əsas vurğunu "yüklənməsinə" edib. Diqqət edək:** "Başqa bir qəribəlik ondan ibarətdir ki, iki ildir istintaq gedir, məhkəmə prosesinin birinci mərhələsi başa çatıb. Ancaq Londondakı lordlar məhəlləsindəki bahalı malikanələrim, təyyarələrim, offşor zonalarındakı pullarım haqqındakı şayiələr şayiə olaraq qalmaqdadır. Real aləmdə bunları tapan və görən yoxdur".

Dekabrın 5-də C.Hacıyevin həbsinin 1 ili tamam olur. Onun mart ayında "istefa" verməsindən keçən 10 ayda azadlıqda qalmasına səbəb dəyən ziyanı toplamaq və özünün də borcunu ödəmək vədi olub. Amma C.Hacıyev anlaşmanı pozduğu üçün bir il əvvəl həbs olundu. Onun anons etdiyi üçüncü ittiham haqda hələ ki rəsmi məlumat yoxdur, amma özü yazır ki, ona yeni ittiham verilir. "Bu lap sinxron qadın üzgüçülüyü idman növünə bənzəyir, əhsən! Tanrı bizi növbəti devalvasiyalardan, məni isə üçüncü ittihamdan qorusun!" deyə, müraciətini yekunlaşdırır.

Qudası - sabiq nazir Eldar Mahmudovun xilas edə bilmədiyi, bəlkə də qurban verdiyi C.Hacıyevin indi sanki təkbaşına müqavimət göstərdiyi rəyi yaranır. Amma heç şübhə yoxdur ki, onun arxasında yenə də dayanan qüvvə var, bu isə təkcə E.Mahmudov olmaya da bilər.

C.Hacıyev də çox sirlər bilir və onları həbsdən yaymayacağına heç bir zəmanət yoxdur. Onun müqaviməti həm də buna işarədir...

❑ **"YM"**

# Həbsdəki müavini yanan binaya görə Xaləddin İsgəndərovu "nişan verir"

## Vəkil: "Qəzənfər Novruzov təqsirli bilindiyi qədər icra başçısı da təqsirli bilinməlidir"



Qəzənfər Novruzov



Xaləddin İsgəndərov

**Binəqədidə 15 nəfərin ölümü ilə nəticələnən yanğın hadisəsinə görə həbs edilən şəxslərin cinayət işi üzrə məhkəmə prosesi keçirilib. Sənədlərin tədqiqi mərhələsində yanğının baş verdiyi rayonun icra hakimiyyətinin rəhbər şəxslərinin vəzifələri, onların tutduqları posta uyğun olaraq səlahiyyətləri elan olunub.**

Yanğına görə həbs edilən şəxslərdən olan Binəqədi rayon icra başçısının müavini olmuş Qəzənfər Novruzovun səlahiyyətləri elan olunarkən onun vəkili Nüşabə Ağayeva etiraz edib. Vəkil deyib ki, yanğın baş verən binada aparılan işlər, görülən işlərin keyfiyyətində və təhvil-təslimində Q.Novruzov təqsirli bilindiyi qədər icra başçısı Xaləddin İsgəndərov da təqsirli bilinməlidir.

N.Ağayeva bunu onunla izah edib ki, hüquqlarını müdafiə etdiyi Q.Novruzovdan əvvəl səlahiyyətli şəxslər icra başçısı və digər vəzifəli məmurlardır. Bu səbəbdən də günahkar şəxs kimi Q.Novruzovun göstərilməsi doğru deyil.

Məhkəmədə sənədlərin tədqiqi zamanı vəkillər FHN-in binada aparılan təmir işləri ilə bağlı verdiyi rəyləri imzalayan şəxslərin məhkəməyə gətirilməsi və dindirilməsini tələb ediblər.

**Miryusif Mahmudovun vəkili bildirib ki, sənədlərdə FHN-in icra başçısı Xaləddin İsgəndərova ünvanladığı məktublar saxtadır:** "FHN-in nazir müavini tərəfindən Xaləddin İsgəndərova ünvanlanan məktubda qeyd edilir ki, 2012-ci ildən 6 məktub göndərilib və guya həmin məktublarda poliuretanla üzlənən binalarda təhlükənin olduğu göstərilir. Məktublarda guya yanğın siqnalının daxil olduğu, buna görə də binaların ətrafında növbətçiliyin təyin olunması istənilir. Ancaq qeyd edilən məktubların heç biri icra hakimiyyətində məktubların qəbulu jurnalında qeydə alınmayıb. Həmin məktublar saxtadır və məsuliyyətdən yayınmaq üçün yazılıb".

Prokuror Fərid Nağıyev isə qeyd edib ki, nazir müavini tərəfindən imzalanan məktubun saxtalaşdırılması mümkün deyil.

**Təqsirləndirilən şəxslərdən Uğur Bəşirov qeyd edib ki, 2013-cü ildən poliuretan məhsul istehsal edən müəssisələrdən "QlobalStone" MMC-nin direktoru olub. Amma direktor olduğu müddət ərzində nə FHN-dən, nə də digər qurumlardan məktub almayıblar:** "Əgər bu məhsullar təhlükəli idisə, niyə heç vaxt xəbərdarlıq edilməyib?"

**Vəkil deyib ki, 2015-ci il, mayın 13-də FHN Binəqədi Rayon İcra Hakimiyyətindən poliuretanla üzlənən binaların yanına yanğın söndürən maşınların yerləşdirilməsini istəyib:** "FHN-in həmin məktubuna 19 mayda - yanğın baş verən gün cavab verilib. Məktubda icra hakimiyyəti qeyd edir ki, lazımi təhlükəsizlik tədbirləri görülüb. Bu çox maraqlı faktdır. Necə olub ki, həmin gün cavab verilib? Məktublardan belə çıxır ki, bunlar əvvəlcədən yanğının baş verəcəyini bilirdilər?"

**Hakim Əfqan Hacıyevin bu suala cavabı belə olub:** "Görünür, məsuliyyətsizlik ediblər".

**Vəkil İlhamə Həsənova:** "Bu məsuliyyətsizliyi edənlər məsuliyyətə cəlb edilməlidir. Əgər binanın yanına yanğınsöndürən maşın qoyulsa idi, tüstüləmə baş verən zaman bu hadisənin qarşısı alınardı".

**Məhkəmə prosesi dekabrın 5-də davam edəcək.**

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 268 (6589) 2 dekabr 2016

## Toya hazırlaşan biznesmen oğlu qəfil öldü



**Bakıda tanınmış iş adamının gənc oğlu qəfildən dünyasını dəyişib.**

"Report"un xəbərinə görə, hadisə Sabunçu rayonu Bakıxanov qəsəbəsində körpünün üzərində qeydə alınıb.

Belə ki, 20 yaşlı Əliyev Asim Nəriman oğlu qardaşı Şəhriyar Əliyevlə birlikdə 10 SL 222 dövlət qeydiyyat nişanlı "Mercedes" markalı avtomobillə hərəkət edərkən qəfildən halı pisləşib. A.Əliyev hava almaq üçün qardaşından avtomobili saxlamasını xahiş edib. O, körpünün üzərində dayanarkən qəfildən yıxılıb. Ş.Əliyev qardaşını xəstəxanaya çatdırıb. Lakin onun həyatını xilas etmək mümkün olmayıb. Həkimlərin dediyinə görə o, infarkt keçirib.

Qeyd edək ki, A.Əliyev "Qarabağ Broyler MMC"nin və "Şəhriyar" şadlıq sarayının sahibi Nəriman Əliyevin oğludur. Dekabrın 10-da A.Əliyevin toy məclisi olacaqmış. Onun nişanlısı yüksək vəzifəli polis əməkdaşının qızıdır.

## Heydər Babayev federasiya rəhbərliyindən çıxarıldı

### Həndbol Federasiyasına Saleh Məmmədov gətirildi



**Dekabrın 1-də Milli Olimpiya Komitəsində (MOK) Azərbaycan Həndbol Federasiyasının təşkilati məsələlərin müzakirəsi ilə bağlı növbəti konfransı keçirilib.**

Gənclər və İdman Nazirliyindən virtualaz.org-a verilən məlumata görə, yığıncaqda MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə və gənclər və idman naziri Azad Rəhimov iştirak ediblər.

Ç.Hüseynzadə bildirib ki, federasiya prezidenti Heydər Babayev öz ərizəsi ilə vəzifəsindən istefa verib və bu səbəbdən də quruma yeni rəhbərin seçiləcək. Çıxışdan sonra səsvermə keçirilib. Yeganə namizəd olan "Azəryolservis" ASC-nin sədri Saleh Məmmədov Həndbol Federasiyasının prezidenti seçilib.

## Bacısının başını kəsən qız azadlıqda



**2014-cü ilin oktyabr ayında bacısının başını kəsdiyinə görə həbs olunan Şəki sakini Pərvanə Etibar qızı Nuriyeva azadlığa buraxılıb.**

Ölkə.az xəbər verir ki, Bakının Xudu Məmmədov küçəsi 18 ünvanında kirayə yaşadıqları mənzildə 20 yaşlı bacısı Günel Nuriyevanın boğazını kəsərək öldürən Pərvanə Nuriyeva hazırda Şəki şəhərindədir. Bildirilir ki, Şəkinin imkanlı şəxslərindən hesab edilən Etibar Nuriyevin evi ciddi şəkildə qorunur, evə ailənin yaxın adamlarından savayı kimsə buraxılmır.

Xatırladaq ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə bacısını qətlə yetirən qız barəsində məcburi xarakterli tibbi tədbirlərin tətbiq edilməsi ilə bağlı qərar çıxarılmış və o, müalicə edilməsi üçün Səhiyyə Nazirliyinin 1 saylı Respublika Psixiatriya Xəstəxanasına göndərilmişdi.

# İşığın qiyməti ilə bağlı yeni qaydaların tətbiqinə başlandı

### Ekspertlər bildirirlər ki, limit çox aşağıdır və əhalinin əksər hissəsi bu həddi keçəcək; həmçinin vətəndaşlar tezliklə bahalaşmanın təsirlərini bir çox sahələrdə ciddi şəkildə hiss edəcəklər

**Dekabrın 1-dən Tarif Şurasının işıqla bağlı yeni qaydalarının tətbiqinə başlanıb. Bildirilir ki, elektrik enerjisi istehsalında təbii qazın əhəmiyyətli rolu olduğu üçün elektrik enerjisinin qiymətinin kəskin artımının qarşısını almaq məqsədilə Azərbaycan Tarif (qiymət) Şurasının 2016-cı il 28 noyabr tarixində keçirilmiş növbəti iclasında qəbul edilmiş qərarı ilə təbii qazın tarifi elektrik enerjisi istehsalı müəssisələri üzrə min kubmetr üçün 120 manat, qeyri-əhali istehlakçı qrupu üzrə isə 200 manat səviyyəsində təsdiq edilib.**




Həmçinin qeyd edilir ki, təbii qaz tariflərinin dəyişdirilməsi elektrik enerjisi üzrə tariflərə də yenidən baxılmasını zəruri edib və elektrik enerjisinin bir kilovat-saat üçün topdansatış tarifi 5,7 qəpik təsdiq edilib, pərakəndə satış tarifi isə sosial siyasətə uyğun olaraq, əhali üzrə aylıq elektrik enerjisi istehlakı 250 kilovat-saatadək olan istehlakçılar üçün dəyişdirilməyərək mövcud 7 qəpik səviyyəsində saxlanılıb, aylıq istehlak həcminin 250 kilovat-saatdan çox olan hissəsi üçün isə 11 qəpik müəyyənləşdirilib.

Başqa sözlə desək, əhali üzrə aylıq elektrik enerjisi istehlakı 250 kilovat-saatadək olan istehlakçılar üçün heç nə dəyişməyib. Amma aylıq enerji istehlak 250 kilovat-saatdan çox olan abonentlərin xərcləri artıb. Məsələn, ayda 400 kilovat-saat enerji istehlak edən abonent buna görə 34 manat ödəniş etməli olacaq. Halbuki əvvəl o, bu göstəriciyə görə əvvəl indikindən 6 manat az, yəni 28 manat ödəyirdi. Ayda 1000 kilovat-saat enerji istehlak edən abonent buna görə 100 manat ödəniş etməli olacaq. Göründüyü kimi, istehlak artdıqca və xüsusilə də limitdən artıq sərfiyyat abonentə baha başa gələcək. Enerji təchizatı birbaşa 35 və 110 kilovoltluq xətlərlə həyata keçirilən, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kilovat-saatdan az olmayan kimya və alüminium sənayesi, dağ-mədən filizi əsasında polad əritmə istehsalı müəssisələri üçün elektrik enerjisinin bir kilovat-saat üçün topdansatış tarifi gecə və gündüz vaxtı üzrə müvafiq olaraq 2,8 qəpik və 5,8 qəpik təsdiq edilib. Bununla yanaşı, ekoloji cəhətdən daha təmiz olan alternativ və bərpa olunan enerji mənbələri üzrə elektrik enerjisi istehsalının stimullaşdırılması və təbii qaza qənaət olunması məqsədilə özəl kiçik su elektrik stansiyaları üzrə elektrik enerjisinin istehsalçıdan satınalma tarifi bir kilovat-saat üçün 5 qəpik, külək elektrik stansiyaları üzrə 5,5 qəpik, digər alternativ və bərpa olunan mənbələr üzrə isə 5,7 qəpik müəyyənləşdirilib. (APA)

**Ekspertlər isə bildirirlər ki, limit çox aşağı həddir və əhalinin əksər hissəsi bu həddi keçəcək. Ekspert Qubad İbadoğlu musavat.com-a açıqlamasında bildirib ki, vətəndaşlar qiymət artımının təsirini qısa müddət sonra hiss edəcəklər:** "Qiymətlərin təsirini həmin gün hiss etmək mümkün olmayacaq. Minimal səviyyə müəyyənləşdirilib və bu səviyyə az müddətdə bitəcək. qaz üçün illik limiti əhali bir neçə aya dolduracaq. İşıqla bağlı aylıq limit də qısa müddətdə bitəcək. Bir ayda vətəndaşlar hiss edəcəklər ki, büdcələrində artıq xərcləmələr var, xərcləri artıb. Xüsusilə də qış aylarında qazın daha çox təsirli olacaq, yay aylarında isə elektrikin artımının təsiri daha çox hiss olunacaq".

**Ekspertin sözlərinə görə, qazın qiymət artımı qış dövründə təsirli olsa da, onun yaratdığı xərclər orta azərbaycanlının büdcəsində 3-4 aydan sonra hiss olunacaq:** "Tarif Şurasının məlum qərarı ilə baş verən qiymət artımlarının təsirlərinə dair hesablamalar göstərir ki, qış dövründə evlərini qaz yandırmaqla isidən əhalinin büdcəsinə daha çox təsiri təbii qazın qiymətinin bahalaşması göstərəcək. Bu, xüsusilə də ölkə paytaxtında və ətraf rayonlarda qazla işləyən qızdırıcı sistemlərin, kombilərin sərfiyyat göstəricilərindən asılı olacaq. Hazırda mənzilin sahəsindən asılı olaraq ən çox işlədilən kombilərin gücü 24-lə 40 arasında dəyişir. Texniki parametrlərinə görə, 24-lük kombinin 1 saatlıq qaz sərfiyyatı 2,2 kubdur, belə olan halda 10 saat işləyən kombi gündə 22 kub, ayda isə 660 kub qaz yandırır. Bu isə o deməkdir ki, həmin istehlakçı 2,5 aydan sonra yalnız istilik məqsədilə istifadə etdiyi qaza görə minimal normasını ödəyərək, ilin qalan 9,5 ayında əvvəlkindən 2 dəfə yüksək tariflərlə ödəniş etmək məcburiyyətində qalacaq. Evlərinin isidilməsində 28-lik kombilərdən istifadə edənlər üçün isə bu müddət 2 ay təşkil edəcək və həmin ailələrin də tariflərlə hesablanacaq. 32 və 36-lıq kombilərin istifadəçiləri 1,5 aydan, 40-lıq kombinin isifadəçiləri isə 1 aydan tez minimal normanı, yəni illik 1500 kubmetri qaz istehlak edib, yerdə qalan müddətdə əvvəlki kimi hər 1 kuba görə 10 qəpik deyil, 2 dəfə çox- 20 qəpik ödəyəcəklər. Nəzərə alanda ki, ailə təsərrüfatında təbii qaz yalnız isitmə məqsədilə deyil, həm də digər məqsədlər üçün istifadə edilir, onda yuxarıda qeyd olunan müddətlər daha da tezləşəcək və nəticədə istehlakçıların böyük əksəriyyəti köhnə qiymətlə hesablanacaq illik 1500 kub qaz sərfiyyatını 2-3 ayda bitirəcəklər, yerdə qalan dövrlərdə də yuxarı tarifləri ödəyəcəklər. Ona görə də qazın qiymətinin bahalaşması orta azərbaycanlının büdcəsində 3-4 aydan sonra hiss olunacaq".

**Q.İbadoğlu vurğulayıb ki, artan qiymət yalnız elektrik və qazı əhatə etmir:** "Tarif Şurasının qərarı ilə beş adda məhsul və xidmət bahalaşıb. Onlardan əhaliyə ən çox təsir edən işıqla qazdır. Eyni zamanda dərman preparatlarının qiymətinin bahalaşması da əhaliyə təsir göstərəcək. Amma məsələ bundan ibarətdir ki, qiymət artımı davamlı şəkildə digər bazarlarda da müşahidə olunacaq. Əhali bunu o zaman daha ciddi şəkildə hiss edəcək".

**Əhalinin reaksiyasına gəldikdə isə ekspert vurğulayıb ki, bunun üçün müəyyən qədər gözləmək lazım gələcək:** "Əhali görəcək ki, istixanalarda yetişdirilən tərəvəzin, çörəyin, qənnadı məmulatlarının qiymətində bahalaşma var. O cümlədən əhali görəcək ki, əsas ərzaq məhsulları bahalaşıb, bunun büdcəsinə elektrik və qazın qiymətinin ayrıca təsirindən çox təsirlər müşahidə olunacaq. Mümkündür ki, yaxın zamanlarda nəqliyyatda gediş haqları bahalaşsın. Metroda gedişhaqqı bahalaşsa, avtomatik olaraq avtobuslarda da bahalaşmanı şərtləndirəcək. Qiymət bahalaşmasının geniş spektri əhatə etməsi gözlənilir. Azərbaycan hökuməti çox uğursuz bir vaxt seçib. Çünki ölkənin yaxın 5-6 ayında həm resursları məhduddur, həm də vətəndaşların və sahibkarların fəaliyyət imkanları getdikcə daralır. Bu halda, qış aylarında qiymət bahalaşması əhalinin büdcəsində kəskin izlər buraxacaq. Müəyyən müddətdən sonra reaksiyaları hiss edəcəyik. Etirazların geniş, kütləvi olacağını ehtimal etmirəm. Lokal olacaq, eyni zamanda az sayda iştirakçıların mövqeyini ifadə edən narazılıq olacaq. Durumları çox pis olsa da, çox insanlar etirazlara qoşulmayacaq. Amma istənilən halda, düşünürəm ki, yaxın zamanlarda sosial narazılıqları biz həmin müstəvidə görəcəyik. Çünki sosial narazılıqların dairəsi genişlənir. Hakimiyyət özü bunu genişləndirib. Əvvəllər baş verənlər aztəminatlı təbəqənin bir qrupuna təsir göstərirdi, indi demək olar, əksər hissəninə, 70 faizinə təsir göstərəcək, 70 faiz ziyan çəkəcək. Tarif Şurasının hesablamasında verilən rəqəmlər düzgün deyil. Bu qiymət artımı əhalinin 60-70 faizinə təsir edəcək, kifayət qədər böyük miqyasda neqativ təsiri şərtləndirir. Son qiymət artımından ilk növbədə əhalinin 60-70 faizi ziyan çəkəcək".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 268 (6589) 2 dekabr 2016

**Dekabrın 1-də Milli Məclisin daha 5 komitəsi (Səhiyyə, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil, Mədəniyyət və Əmək və sosial siyasət) 2017-ci ilin büdcə zərfini hökumət nümayəndələri ilə birlikdə müzakirə etdi.**

# Büdcə müzakirələrində ikinci gün- hökumətlə pul davası

## Deputatlar elm, təhsil və mədəniyyətə ayrılan vəsaitin artırılmasını istədilər









**Əmək və sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli bildirdi ki, 2017-ci ilin dövlət büdcəsi sosialyönümlüdür:** "Azərbaycanın 2017-ci il üzrə dövlət büdcəsində sosial məsələlərə cari illə müqayisədə 1.8 faiz artıq vəsait ayrılıb. Ümumilikdə bu sahəyə 2 milyard 53 milyon manat vəsait cəlb edilib". Komitə sədri qeyd etdi ki, gələn il pensiya, sosial müavinətlərin, təqaüdlərin, ünvanlı sosial yardımların, həmçinin dövlət büdcəsindən maliyyələşən təşkilatlarda əməkhaqqlarının artırılması nəzərdə tutulur.

**Maliyyə naziri Samir Şərifov dedi ki, 2017-ci ildə Dövlət Neft Fondundan büdcəyə 6 milyard 100 milyon manat vəsait transfert ediləcək, bu da cari illə müqayisədə 1,5 milyard manat azdır. Nazir əlavə etdi ki, 2016-cı ildə neftin büdcədə qiyməti bir barel üçün 25 dollardan götürüldüyü halda, gələn il bu rəqəm 40 dollar olacaq. S.Şərifov büdcə ilə bağlı narahatlığını da gizlətmədi:** "Devalvasiyalara baxmayaraq, yenə də manatın məzənnəsi təzyiqlərə məruz qalmaqdadır. Xərclərin optimallaşdırılaraq səmərəliliyin daha da artırılması, xarici öhdəliklərin vaxtında və tam yerinə yetirilməsi üçün maliyyə təminatının yaradılması nəzərdə tutulub. Lakin xam neftin qiymətinin daha da ucuzlaşması risk faktorudur. Neftin qiymətinin büdcədə nəzərdə tutulan 1 barel üçün 40 dollardan aşağı düşməsi, qeyri-neft sektorunda artımın nəzərdə tutulan səviyyədə olmaması, artımın gec olması və xarici mühitdəki digər mənfi meyllər nəticəsində dövlət büdcəsinin icrasında çətinliklər mümkündür. Kəsiri bağlamaq üçün xərclərin azaldılması istiqamətində atılacaq addımlar kifayət etmədikdə büdcəyə yenidən baxıla bilər".

**Bununla belə, S.Şərifov bildirdi ki, bütün çətinliklərə baxmayaraq, büdcəyə daxilolmalar artıq olacaq.** "Bu daxilolmalar isə əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin möhkəmləndirilməsinə yönəldiləcək. 2017-ci ildə ehtiyac meyarı 105 manatdan 116 manat səviyyəsində, yaşayış minimumu isə 14,5 faiz artırılaraq 155 manata, əmək qabiliyyəti olan insanlar üçün 164,5 manat, pensiyaçılar üçün 130,2 manat, uşaqlar üçün 136,6 manat səviyyəsində müəyyənləşdiriləcək".

### "Nə musiqi məktəbləri, nə də teatrlar bağlanmalıdır"

**Mədəniyyət komitəsinin sədri Rəfael Hüseynov mədəniyyət sahəsinə ayrılan vəsaitin aşağı olmasına diqqət çəkdi:** "Maliyyə naziri Samir Şərifov və baş nazir Artur Rəsi-Zadə mədəniyyətə bağlı nəsillərdən çıxıblar və onlar mədəniyyət sahəsinə vəsait ayrılarkən, bu məsələni nəzərə almalıdırlar". **O xatırlatdı ki, Azərbaycanın düşmənləri torpaqlarımızı işğal etməzdən öncə mədəniyyətimizi işğal edib:** "O baxımdan da nə musiqi məktəbləri, nə də teatrlar bağlanmalıdır! Buna yol vermək olmaz! Mədəniyyət sahəsində hansısa qırılma olanda mütəxəssisi qısa zamanda yetişdirmək mümkün deyil. Odur ki, bu sahəyə diqqət yetirilməlidir. Onlara lazımi səviyyədə vəsait ayrılmalıdır. İqtisadiyyatın dağılmış sahəsini qısa zamanda bərpa etmək olar. Ancaq təhsil və mədəniyyətin dağılmasını bərpa etmək üçün uzun illər tələb olunur".

### Xəstələr niyə xaricə gedir?

"Mənim seçildiyim rayonun ən böyük ikinci kəndində prezident sərəncamı ilə böyük bir məktəb tikilib. Ancaq dekabrın 1-dir, bu məktəbin hələ də istilik sistemi yoxdur".

**Bu sözləri isə deputat Qənirə Paşayeva söylədi. Xanım deputatın sözlərinə görə, məktəbə istilik sistemi çəkilib, ancaq kənddə qaz olsa da, məktəb mavi yanacaqla təchiz olunmayıb:** "Deyirlər ki, qaz xəttini çəkmək üçün vəsait yoxdur. Bəs bu məktəb, ordakı müəllimlər problemi necə həll edə bilərlər? İstilik sistemi olmasa, böyük vəsaitlərlə tikilmiş o məktəb bir ildən sonra hansı vəziyyətə düşəcək?" **Daha sonra Q.Paşayeva səhiyyə sahəsi ilə bağlı təkliflərini səsləndirdi:** "Milli Oftolmologiya Mərkəzinə bir xəstə göndərdim ki, yoxlanıb əməliyyat olunsun. Amma xəstə mənə dedi ki, əməliyyatı Azərbaycanda etmək mümkün deyil və məni İrana göndərin. Mən də Milli Oftolmologiya Mərkəzinə zəng edib dəqiqləşdirdim və mənə dedilər ki, Azərbaycanda gözün buynuz qişasının əməliyyatı, transplantasiyasına görə lazım olan buynuz qişa toxumalarının ölkəyə gətirilməsi və bu əməliyyatın keçirilməsi qadağandır". Deputat bildirdi ki, gözün buynuz qişasının toxuma əməliyyatlarının Azərbaycanda keçirilməsinin qadağan olunması və bu toxumaların xaricdən ölkəyə gətirilməsinin qadağan edilməsi səhiyyənin adına ləkədir.

## Maliyyə naziri: "Büdcənin icrasında çətinliklər mümkündür"

### Deputat Hesablama Palatasını ittiham etdi

**Deputat Bəxtiyar Əliyev isə bədxərclik edən qurumları günahlandırdı:** "Maliyyə Nazirliyi vəsaitləri toplayır, amma digər qurumlar onu xərcləyir. O təşkilatlar cavab verməlidirlər ki, dövlətin ayırdığı vəsait niyə səmərəli istifadə edilmir?"

B.Əliyev daha sonra elm və təhsilə ayrılan vəsaitin azlığına diqqət çəkdi. O, Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun "dövlət ali təhsil müəssisələrinin sərbəst qalan vəsaitlərinin mənfəət və əmlak vergisinə cəlb olunması məsələsinə baxılmalıdır" fikrinə qarşı da çıxdı. Deputatın sözlərinə görə, Hesablama Palatasının rəyinə qulaq asarkən orada dövlət siyasətinin ziddinə olan fikirlərə rast gəlib: "Hesab edirəm ki, Hesablama Palatasının bu mövqeyi dövlət siyasəti ilə uyğunluq təşkil etmir. Əksinə, biz elmə daha çox vəsait ayırıb, onun inkişafına nail olmalıyıq".

**Deputat Jalə Əliyeva mədəniyyətin inkişafı və təbliği üçün büdcə vəsaitlərinin artırılmasını zəruri saydı.**

**Tanınmış ürək cərrahı, deputat Rəşad Mahmudov xəstələrin xaricə axın etməsinə diqqət çəkdi:** "Bu gün ölkədən xaricə gedən ən böyük valyuta hissəsinin kanallarından biri də səhiyyə sahəsidir. Bütün ölkələrdə təhsillə səhiyyə arasında 2 qat qiymət fərqi mövcuddur. Amma bizdə bu sahədə tamamilə tərs mütənasiblik və proporsiya var". **Deputatın sözlərinə görə, icbari tibbi sığortanın tətbiq olunduğu ölkələrdə səhiyyə sahəsinə ayrılan pul üçün xarici yatırımların miqdarı hər il artır:** "Xahiş edirəm ki, gələn il bunu nəzərə alasınız. Elə edək ki, Azərbaycandan xəstələr xaricə çox da getməsin və kapital da ölkədən çıxmasın". R. Mahmudov səhiyyə sahəsində, əsasən özəl tibb müəssisələrində olan Əlavə Dəyər Vergisinin (ƏDV) yüngülləşdirilməsini də təklif etdi: "ƏDV-nin yüksəkliyi xəstə insanlar üçün problemlər yaradır. ƏDV-nin 18 faizdən 8-ə endirilməsi əslində xəstələrdən gələn gəlirləri və büdcə daxilolmalarını artıracaq .Vergi yükü azalsa, xəstələrin də ödəmə qabiliyyəti yüksələr".

**"Elmlə bağlı azalmalar mövcuddur. Amma Elmin İnkişaf Fondu yaradılıb və hər il bu quruma kifayət qədər vəsait veririk. Ancaq ildən-ilə həmin vəsait növbəti illərə qalır. Fondda iki illik ehtiyat vəsaiti var və xərclənməyib. Ehtiyat vəsait olduğu üçün biz əlavə vəsait ayırmamışıq". Maliyyə naziri bu fikirləri elm və təhsilə ayrılan vəsaitin artırılması barədə təkliflərə reaksiyasında dedi. Nazir daha sonra deputat Qənirə Paşayevanın Tovuzdakı yeni tikilən məktəbin istiliklə təmin olunmaması barədə qaldırdığı problemlə bağlı danışarkən bildirdi ki, əslində məktəb tikilərkən bütün məsələlər kompleks həllini tapmalıdır:** "Əgər hansısa sahədə problem varsa, deməli, tapşırıqlar düzgün icra olunmayıb və hansısa sahədə əyintilər olub. Ona görə də sifarişçi və icraedici qurumlarla məsələlərin araşdırılmasına ehtiyac var. Biz bu məsələ ilə məşğul olacağıq".

S.Şərifov dedi ki, cari ildə 10 milyon manat, növbəti ildə isə 20 milyon manat vəsaitin icbari tibbi sığortaya ayrılması nəzərdə tutulub.

**Maliyyə nazirinin sözlərinə görə, məktəbəqədər uşaq bağçalarında müştərək maliyyələşmə mexanizmi tətbiq oluna bilər:** "Biz artıq bazar iqtisadiyyatına keçmişik. Dövlət üzərinə sosial yükü götürüb. Bu da prezidentin apardığı siyasətdir. Sosialyönümlü siyasət üstünlük təşkil edəcək.

Lakin bəzi xərclərin dövlətlə əhali arasında bölüşdürülməsi, eyni zamanda həmin xərclərin düzgün, səmərəli həyata keçirilməsinə, ictimai nəzarətin tətbiqinə gətirib çıxarır. Hazırda pullu və dövlət büdcəsi hesabına maliyyələşən bağçalar var. Burada müştərək maliyyələşmə prinsipləri də tətbiq oluna bilər".

S.Şərifov B.Əliyevin Hesablama Palatası ilə bağlı səsləndirdiyti fikirlərə də reaksiya verdi. Bildirdi ki, Hesablama Palatasının 2017-ci ilin büdcəsi ilə bağlı verdiyi rəydə ali təhsil ocaqlarının mənfəət vergisinə cəlb olunması təklifinə hökumət tərəfindən baxılmır. Onun sözlərinə görə, hökumətdə nə belə bir fikir var, nə də belə bir düzəlişə baxmaq barədə məsələ gündəmdədir.

**Komitə sədri Hadı Rəcəbli uzun illərdir şəhid ailələrini və Qarabağ qazilərini narahat edən sığorta haqları ilə bağlı problemi də hökumət üzvlərinə xatırlatdı.** "Biz şəhid ailələrinin övladlarının ödənişli ali məktəblərdə təhsil haqqından azad olunması barədə qanun qəbul etmişik. Amma orada göstərilir ki, həmin tələbələr 23 yaşa qədər təhsil haqqından azad olunur. Bu da magistratura pilləsində problem yaradır"-deyə, komitə sədri bildirdi. H.Rəcəbli hökumət üzvlərinə üz tutaraq şəhidlərə və Qarabağ əlilləri üçün müəyyənləşdirilən sığorta haqları ilə bağlı da problemlərdən də danışdı: "Gələcək büdcə hazırlanarkən mütləq bu məsələ gündəmə gəlməlidir. Çünki bu məsələ çoxdan ortadadır".

### Səlim Müslümov: "Artım işçilərin əmək haqlarının maliyyələşdirilməsinə yönəldiləcək"

**Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov çıxışında dedi ki, gələn il Dövlət Sosial Müdafiə Fondunun xərcləri 81,8 milyon manat olacaq, bu da ötən illə müqayisədə 13,4 mln. manat və ya 19,6 faiz yüksəkdir:** "Bu sahədə xərc artımı əsasən fondun aparatının saxlanılması istiqamətində proqnozlaşdırılıb. Belə ki, fondun aparatının və onun yerli orqanlarının saxlanılması xərclərinin proqnozu 2017-ci il üçün 40 mln. manat və ya hazırkı ilə nisbətən 13 mln. manat çox nəzərdə tutulub. Əgər birləşməyə qədər fondun işçilərinin sayı 2700 nəfər idisə, hazırda bu göstərici 4790 nəfər təşkil edir. Gördüyünüz kimi, bu artım işçilərin əmək haqlarının maliyyələşdirilməsinə yönəldiləcək".

S.Müslümovun sözlərinə görə, 2017-ci ilin sonunadək orta aylıq əməkhaqqı ilin əvvəli ilə müqayisədə 3,7 faiz artaraq 508 manat təşkil edəcək. Nazir əlavə etdi ki, gələn ilin sonuna kimi ölkə əhalisinin sayı 9,822 milyon nəfər təşkil edəcək. Onun sözlərinə görə, 2017-ci ilin sonuna kimi doğulanların sayının 159 min nəfər, təbii artımın 102,5 min nəfər təşkil edəcəyi, həmçinin gözlənilən ömür uzunluğunun 75,2 yaşa, o cümlədən qadınlar üzrə 77,6 yaşa, kişilər üzrə 72,7 yaşa çatacağı, 15 yaşınadək əhalinin bütün əhalinin 22,5%-ni, 15-64 yaşadək əhalinin bütün əhalinin 71,3%-ni, 65 yaşdan yuxarı əhalinin isə bütün əhalinin 6,2%-ni təşkil edəcəyi gözlənilir.

**Bu gün büdcə müzakirələri davam etdiriləcək.**

❑ Elşad PAŞASOY
FOTO: "YM"



# Qırğızların fağır rəhbəri

Samir SARI

**Xəbər budur, demokrat qardaş, deyir, Qırğızıstan prezidenti Almazbek Atambayev bir ildən sonra postunu təhvil verəcək.**

Adam mat qalır: necə yəni? Durduğu yerdə? Asiyada?

Əslində isə məsələ belədir, Atambayev "1 ildən sonra prezident postundan gedəcəm" deyə heç kəsə minnət qoya, "görürsünüz, mən necə demokrat oğlanam" deyə bilməz, çünki adamın müddəti rəsmən bitir. İstəməsə də getməlidir - qayda belədir.

60 yaşlı Almazbek bəy prezident postuna 2011-ci ilin payızında seçilib, gələn il, 2017-ci ilin bu vədələri səlahiyyət müddəti başa çatacaq.

Özü də məsələ belədir ki, Qırğızıstanda prezidenti cəmi bir dəfə, 6 illiyə seçirlər. Bunu ona görə ediblər ki, hər yeni prezident sələfləri Əsgər Akayev və Kurmanbek Bakiyev kimi kreslodan yapışıb durmasın, iki, üç, hətta dörd dəfə prezident seçilmək fikrinə düşməsin.

Ona görə də hələ gələn il postundan gedəcəyi ilə bağlı anons verən Atambayevin bu addımını onun demokratlığına, qanunpərəstliyinə bağlamağa tələsmək olmaz.

Bilmək olmaz, bəlkə də bu saat arşanlı Şarşen kişinin oğlunun ürəyindən qara qanlar axır, oturub fikirləşir ki, axı Qırğızıstanın Özbəkistandan, Türkmənistandan, Tacikistandan, Qazaxıstandan nəyi artıqdır, niyə onlarda prezident ömürlük ola bilər, amma məhz Qırğızıstanda cəmi bir müddət işləməlidir?

Bununla belə, Atambayev özünü el qabağında sındırmadan deyib ki, demokratik ölkə qura bildiklərinə görə şaddır.

Onun bir müsbət hərəkəti də odur ki, öz yerinə varis hazırlamayıb - nə siyasi, nə bioloji. Əlbəttə, onun iqtidar komandasında kifayət qədər kadr var, ailəsində də övladları çoxdur.

Maşallah, Almazbek bəyin düz altı övladı var: Kadır, Aliyə, Seyitbek, Seytek, Diana və Dinara. Adı sonra gələnlər heç, amma yəqin ki, Kadırın yaşı 32-33 civarındadır. Atambayev ölkə konstitusiyasının bir az gücürləyə, özünə bir-iki illik səlahiyyət müddəti artıra, oğlunun yaşı prezidentliyə düşən kimi "varis planı" həyata keçirə bilərdi.

Heyhat, 6-7 il qabaq Qırğızıstanda inqilab edənlər elə bir qayda-qanun yaradıblar ki, Asiya dəyərləri göz-görəti zay olub gedir. Açıq-aşkar hiss olunur ki, Qırğızıstan özünü Asiya standartlarına uyğun aparmır. Sanasan, bu, Finlandiyadır, Norveçdir, Hollandiyadır, nədir.

A kişi, bax, gör, sənin hansı qonşun cəmi 6 il hakimiyyətdə olur, sonra hakimiyyətdən xoşluqla gedir? Heç biri. Xəzərin şərq sahilindəki Mangiştau yarımadasından tutmuş tə Sakit okeandakı Koreya yarımadasına qədər uzanan arealda elə bir dövlət yoxdur ki, (Monqolustan xaric) prezident olan kəs cəmi bircə müddət işləyib hakimiyyətdən getsin.

Ayıb olacaq. Qara qarğaların içində ağ qarğa olaraq hər iki tərəf üçün diskomfortdur. Qara qarğalar imkan verməzlər, ordan-burdan tökülüşüb ağ qarğanı ya qovacaqlar, ya da rəngini dəyişdirəcəklər.

İndi qırğızlar Atambayevi üzüyumşaq görüblər, əllərinə bir fağır prezident düşüb, sağdan da vururlar, soldan da. Amma siz baxarsınız, Atambayev gedəndən sonra onun yerinə bir xarizmatik qırğız kişisi gələcək, üç il işləyəndən sonra məsələ qaldıracaq ki, konstitusiyaya düzəlişlər etmək lazımdır. Onu qırmayacaqlar, edəcəklər. Adam iki dəfə ard-arda seçiləcək. Sonra üçüncü dəfə prezident olacaq. Daha sonra qırğız deputatlar məsələ qaldıracaqlar ki, Qırğızbaşının heykəli qoyulsun, adı da, məsələn, Çuy vilayətinin Panfilovsk şəhərinə (əslində prezident hansı şəhərdə doğulubsa, oraya) verilsin.

Ondan sonra cəmi bircə dəfə prezident olmuş və ömrünün çiçəklənən çağında prezident kürsüsündən ayrı düşmüş Atambayev çox atdanıb-düşəcək, haqsızlıqdan danışacaq, deputatları və digər siyasiləri "manqurt" adlandıracaq, amma xeyri olmayacaq. O yan-bu yan eləsə, ya oğlu Seytekin cibinə nəşə atıb tutacaqlar, ya da Kadırın seks kasetini çəkib internetə qoyacaqlar.

Burası Asiya, burda ala qarğa bala çıxartmaz.



# İqtidarın ən yaxşı müttəfiqi-müxalifət...

## Razi Nurullayev: "Müxalifət o qədər çılpaqlaşıb ki, bütün eyibləri açıq-aşkar görünür"

**Tarif Şurasının qazın və elektrik enerjisinin qiymətlərini bahalaşdırmasından əhalinin əhəmiyyəti hissəsi narazıdır. Lakin fakt budur ki, bu narazılıq ortada görünmür. Normal məntiqlə belə vəziyyətlərdə narazılarla müxalifət bir yerdə olmalıdır, müxalifət yaranmış vəziyyətdə xalqın sözünü deməklə yanaşı, vəziyyətdən rəqibə qarşı istifadə etməlidir. Azərbaycanda isə bunlar müşahidə olunmur. Qiymət artımından keçən günlərdə bir daha bəlli oldu ki, iqtidarın indi "ən yaxın müttəfiqi" müxalifətdir. Çünki müxalifət sosial şəbəkədə və mediada bir-iki cümləlik etiraz ifadələrindən başqa heç bir addım atmır.**

Bəs xalq və müxalifətin bir yerdə ola bilməməsinin günahkarı kimdir, nədir? Hansı amillər ən həssas anlarda belə xalqın müxalifətin keçirdiyi aksiyalara qatılmasına mane olur?

**Yeni AXCP-nin sədri Razi Nurullayev** bildirdi ki, ən böyük səbəb xalqın inamının davamlı olaraq qırılmağa məhkum edilməsidir. Kiçik də olsa nəticə lazımdır. Amma nəticə heç zaman olmayıb, əksinə, müxalifət itirə-itirə gəlib və o qədər çılpaqlaşıb ki, bütün eyibləri açıq-aşkar görünür: "Bu eyibləri örtmək və xalqın inamını yenidən bərpa etmək üçün işlər görürük. Bizdən başqa da bu yöndə iş aparanlar var. Yəqin ki, müəyyən zaman aparacaq. Gördüyümüz işin pik nöqtəsi 2018-ci ilə təsadüf edəcək. Bununla yanaşı, antikvar olsa da, dəyər qazana bilməyən ənənəvi müxalifətin isə təkərə çubuq soxmaq taktikası davam edəcək. "Ərəb baharı" başlayanda bu baharın bizim ölkəmizə də gələcəyinə çox ümidli idik. Hətta hamı 2013-cü ilin dəyişiklik ili olacağını və müxalifətin hakimiyyətə gəlməsi üçün tarixdə bu qədər əlverişli şansın olmadığını vurğulayırdı. Nə baş verdi? Sıfır dəyişiklik və yaranan siyasi fəallığın tam ölümü. Səbəb isə uzun müddət passivlik burulğanında boğulan və hakimiyyətin sərt üzü ilə üzləşərək zorən gücünü itirən müxalifət olaraq, başımızı azacıq qaldıran kimi bədənimizdən böyük iddialara düşməyimiz oldu. Bəlkə də bu iddia deyildi. Bəlkə də razılaşdırılmış çirkli siyasi oyunun bir parçası idi.

Bir çox digər səbəblər də var. Birincisi, müxalifətin və narazı siyasi və ictimai qüvvələrin inteqrasiyası yoxdur. Müxalifət dağınıq və parçalanmış vəziyyətdədir. Xalq müxalif qüvvələrdən inteqrasiya gözlədiyi halda, müxalif qüvvələr ayrı-ayrı mitinqlər təşkil edir. Bu, siyasi mübarizəni körükləmək yox, onu məhv etməkdir. İnsanları ruhdan salmaq, parçalanmış obrazını gücləndirmək və prosesi rüşeymində boğmaqdır.

İkincisi, mitinqlərə az adam çıxarmaqla və bunu tez-tələsik etməklə xalqa pis mesaj ötürülür. Xalqın gözü qorxur, ümidi puç olur. Xalq o zaman müxalifətin yanında olacaq ki, meydanlara ən azı 15-20 min adam çıxsın".

**ADP sədrinin müavini Taliyət Əliyev də bildirdi ki, xalqla müxalifətin bir yerdə olmamağının bir çox səbəblərini sadalamaq olar. Bu səbəblərdən ən başlıcası hakimiyyətin müxalifətə və müxalif düşüncəli insanlara qarşı apardığı diskriminasiya siyasətidir:** "Əgər ölkədə siyasi partiyalara fəaliyyət göstərmək üçün normal şərait yaradılmırsa, müxalifət partiyalarının üzvlərinə qarşı təqiblər davam edirsə, partiyaların insanlarla təmasına imkan verilmirsə, ölkədə sərbəst toplaşmaq azadlığı məhdudlaşdırılırsa, xalqla müxalifət necə bir yerdə ola bilər? Bu gün ölkədə siyasi fəaliyyət müstəvisi o qədər daralıb ki, müxalifət partiyaları öz mövcudluğunu zorla saxlayır, demək olar ki, xalqla müxalifətin təması yalnız virtual xarakter daşıyır. Düzdür, xalqla müxalifətin bir yerdə olmamasına müxalifətin apardığı uzunmüddətli siyasi mübarizəsinin nəticə verməməsi və müxalifətdaxili münasibətlər də öz mənfi təsirini göstərir. Lakin müxalifətin apardığı siyasi mübarizənin də nəticəsiz qalmasının da əsas səbəbi yenə də hakimiyyətin qeyri-demokratik oyun qaydaları ilə fəaliyyəti və müxalifətə qarşı apardığı repressiv siyasətdir. Bütün bu hallar xalqın müxalifətə dəstək verməsində başlıca maneədir".

❑ E.SEYİDAĞA

# Qubad İbadoğlunun təşkilatı qeydə alınmadı

## Ellada Məmmədli: "Bu, siyasi sifarişdir"

## Qubad İbadoğlu: "Növbəti dəfə də rədd cavabı alsaq, məhkəməyə müraciət edəcəyik"

**Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatının dövlət qeydiyyatına alınması ilə bağlı 4-cü müraciətinə Ədliyyə Nazirliyi imtina cavabı verib. Qurum bir daha Ədliyyə Nazirliyinə müraciət etmək fikrindədir. Rədd cavabı alacaqları təqdirdə, məhkəməyə müraciət ediləcək.**

**ADR Hərəkatının sədr müavini Ellada Məmmədli** musavat.com-a bildirib ki, Ədliyyə Nazirliyi dördüncü dəfədir ADR-i qeydə almaqdan imtina edib: "Hər dəfə də lüzumsuz bəhanələrlə müraciəti geri qaytarırlar. İndiyəcən göstərilən bütün iradların hüquqi əsası olmayıb. Buradan belə nəticəyə gəlmək olar ki, ADR Hərəkatının qeydə alınmaması siyasi sifarişdir. Bu sifarişi verənlər ölkədə





demokratik mühitin əngəllənməsinə çalışanlardır ki, ictimai təşkilatların varlığından belə ehtiyatlanırlar. Çox təəssüflər, idarəedici qüvvələr sərbəstliyini qoruya bilmirlər".

**ADR-in sədri Qubad İbadoğlu isə musavat.com-a deyib ki, bu proses artıq neçə dəfədir təkrar olunur:** "ADR Hərəkatının qeydiyyatı ilə bağlı gözləntilərimiz özünü doğrultdu. Çünki hazırda sadə bir problemi həll edə bilməyən, böhran yaşayan hakimiyyətdən ağıllı qərar gözləmirik. Düzgün qərar o olardı ki, ADR qeydiyyata alınsın və biz öz fəaliyyətimizi daha da genişləndirək. İndiki halda Azərbaycan qanunvericiliyi ilə ADR-in qeydiyyatdan keçirilməməsi fəaliyyəti üçün geniş məhdudiyyət yaratmır. ADR siyasi partiya deyil, ictimai birlik statusu ilə fəaliyyət göstərir. Bu, imkan verir ki, qeydiyyatsız da fəaliyyət göstərək. Təbii ki, qeydiyyata almaq daha çox hakimiyyətin özünə lazımdır. Bu halda həm də hərəkatın bütünlüklə fəaliyyətini Azərbaycanın qanunvericiliyinə uyğunlaşdırmaq imkanlarımız yaranır. İndiki halda, bilirik ki, bu, siyasi qərardır. Çünki ictimai birliklərin və hərəkatların, siyasi partiyaların qeydiyyatı məsələsini əslində Ədliyyə Nazirliyi həll etmir. Qərar Prezident Administrasiyasında həll olunur, nazirlik bunu bir növ elmi cəhətdən "əsaslandırır". Biz hesab edirik ki, nazirliyin bizə göndərdiyi fikirlər əsassızdır. Onlar bildiriblər ki, biz hərəkatın nizamnaməsində dəyişikliklər edək. O dəyişiklikləri biz edəcəyik. Əksəriyyət yenidən müraciətin tərəfindədir. Bu dəfə də rədd cavabı alsaq, məhkəməyə müraciət etmək fikrimiz var".

❑ Röya RƏFİYEVA

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 268 (6589) 2 dekabr 2016

**Rusiya ilə forpostu Ermənistan arasında vahid hərbi qruplaşma yaradılması haqda sənəd nəhayət, imzalandı. Prezident Vladimir Putinin "dobrosu" ilə gündəmə gələn vahid ordu ideyası Moskvada Rusiya müdafiə naziri Sergey Şoyqu ilə erməni həmkarı Vigen Sərkisyan arasında imzalanan anlaşma ilə həyata "vəsiqə" almış oldu. Sənədə əsasən, vahid hərbi qruplaşmaya Rusiyanın Gümrüdəki 102 saylı hərbi bazası və erməni hərbi birləşmələri daxil olacaq.**





# İşğal ortaqlarından Azərbaycana ortaq təhlükə

## Moskvada Rusiya və Ermənistan arasında vahid ordu ilə bağlı anlaşma imzalandı, bəs sonra?; **Politoloq:** "Kremlin konfliktə təsir imkanları artıb, situasiya ən əvvəl onun iradəsi ilə dəyişə bilər"

Məsələnin siyasi tərəflərinə gəlincə, bu, ilk növbədə o deməkdir ki, bundan sonra Qarabağ, işğal, müharibə məsələlərində Azərbaycan daha çox Ermənistanın gerçək yiyəsi Rusiya ilə anlaşmalı olacaq, nəinki Ermənistanın özü ilə. Yəni biz artıq Ermənistanla yanaşı, Rusiya ilə də müharibə vəziyyətindəki kimi sayılacağıq.

Beləcə, Qarabağ ixtilafının keyfiyyətcə yeni bir mərhələyə girdiyini söyləmək mümkündür. Doğrudur, Rusiyadan verilən rəsmi açıqlamaya görə, ortaq hərbi birləşmələr yalnız Rusiya və Ermənistana qarşı ortaq xarici hərbi təhdidlərə qarşı nəzərdə tutulub, lakin aydındır ki, nə Azərbaycan, nə də Türkiyə Ermənistana və ya Rusiyaya hücum etməyə hazırlaşmır. Deməli, başqa hədəflər var.

Siyasi təhlilçilərə görə, həmin hədəflərdən biri Qarabağda müharibə zamanı işğalçı Ermənistanı Azərbaycanın haqlı əks-zərbələrindən çəkindirmək niyyəti ilə ilgili ola bilər. Yəni belə çıxır ki, düşmən arxasında Rusiyanı hiss edib, istədiyini edə biləcək, amma Azərbaycan ona cavab zərbəsi endirmək üçün bir növ Moskvadan icazə almalı olacaq.

Yaranmış durum Kremlin işğalçıya artıq yeni bir formada qahmar çıxması, Qarabağ danışıqlarını sabotaj eləməsi anlamına gəlir. Demək, həm də Azərbaycana və qardaş Türkiyəyə münasibətdə yeni bir təhdiddən söhbət gedir. Bu üzdən bir çox siyasi analitiklər Bakı ilə Ankara arasında da analoji addımların atılmasının vacibliyini vurğulayırlar. O sırada iki dövlət arasında hərbi müqavilənin imzalanması və Naxçıvanda Türkiyə hərbi bazalarını yerləşdirməyin vacibliyi qeyd edilir.

*****

Şübhəsiz ki, işğalçı ölkənin başçısı Serj Sərkisyanın Azərbaycan əleyhinə son hədyanları, guya Bakını belə tutmaqla bağlı sərsəmləməsi ən əvvəl Rusiyanın - maskalanmış işğalçının (politoloqlardan birinin sözüdür) əsl işğalçıya yeni dəstəyi ilə birbaşa bağlıdır.

"Lap yaxınlaradək belə davakar ruhda bir çox erməni siyasətçiləri və hərbçiləri danışırdı. Onlar "preventiv zərbələrə", "Azərbaycanı cəzalandırmağa", Kür sahillərinə çıxmaqla geniş ərazi zəbtinə çağırışlar edirdilər. Ancaq hətta onlar da özünütərifdə Bakının zəbtindən dəm vurmurdular. Aprel döyüşlərindən sonra isə onların hamısı öz dillərini dişlədilər". **Bunu politoloq Rasim Musabəyov** son vaxtlar rəsmi İrəvanın sərtləşən Qarabağ ritorikasını şərh edərkən bildirib.

**Onun sözlərinə görə, görünür, Rusiyanın verdiyi "İsgəndər"lər, başqa silah sistemləri ermənilərdə başgicəllənmə yaradıb və onlar yenidən özlərini öyməyə başlayıb:** "Buna indi nə deyəsən? Guya Ermənistan yeni ərazilər zəbt etməyə və Bakını kapitulyasiyaya məcbur etməyə qadir imiş. Maraqlıdır, hansı qüvvə və vasitələrlə bunu edəcək? Adami heyrətə salan həm də Ermənistanın hüdudsuz özündən razılığıdır. Ki, guya o, bizə cəzasız şəkildə yeri doldurulmayan zərərlər yetirə bilər, bu zaman isə öz ərazisi onların zənnincə, analoji zərbələrdən sığortalanmış olacaq".

**Ekspert düşmən ölkə rəhbərliyini xəbərdar da edib: "Ermənilər üzərində hakimiyyəti ələ keçirən və onları, eləcə də Güney Qafqazın milyonlarla sakinini özlərinin tarixi fobiyaları və ərazi iddialarının ağılsız siyasətinin girovuna çevirənləri qisas gec-tez haqlayacaq. Həlelik isə gözü millətçilikdən tutulmuş erməni xalqı dərk eləmir ki, Türkiyə və Azərbaycanla düşmənçilik onların bugünkü həyatını dözülməz edir və gələcək perspektivlərdən məhrum edir. Kimlər ki, bunu dərk edir, on-on, yüz-yüz min ölkəni tərk edir, vətəni kənardan sevməyə üstünlük verirlər".**

**Politoloq Dağlıq Qarabağa dair sülh danışıqlarının perspektivinə də münasibət bildirib. Onun sözlərinə görə, mövcud şərtlər nəzərə alınarsa, nizamlama prosesini dalandan çıxarmağa yönəlik fəallıq və diplomatik səylər gözləməyə dəymir.** "Minsk Qrupunun ABŞ-dan və Fransadan olan həmsədrlərin dəyişdirilməsi situasiyaya öz təsirini göstərməyəcək. Situasiya real olaraq Moskvanın hərəkətləri nəticəsində dəyişə bilər" - sonda politoloq əlavə edib.

*****

Məsələ də elə ondadır ki, iki işğalçının ortaq hərbi birləşmələr yaratmasından sonra Rusiyanın Qarabağ konfliktinin həllinə təsir imkanları və rıçaqları daha da artıb. Bəs Kreml bu rıçaqlardan istifadə edəcəkmi və edəcəksə, necə?

**"Qarabağ danışıqlarını Rusiya ilə aparmağın vaxtı çoxdan çatıb. Rusiya Ermənistana "İsgəndər-M" raketlərini göndərdikdə biz bu addımı atmalı idik. Rusiyanın bir quberniyasına çevrilən Ermənistanla danışıqların artıq heç bir əhəmiyyəti yoxdur". Bu sözləri axar.az-a politoloq Qabil Hüseynli deyib. Sabiq dövlət müşaviri danışıqların Ermənistanla aparılmasının, sadəcə vaxt itkisi olduğu qənaətindədir.**

"Rusiya son zamanlar Cənubi Qafqazda hakimlik uğrunda açıq siyasət yürüdür. Moskva bir növ bütün məsələlərin onunla razılaşdırılmasının siqnallarını verir. Rusiya ATƏT həmsədri kimi bölgədə vəziyyəti düzəltmək, münasibətləri qaydaya salmaq yerinə, xeyli destruktiv mövqedən çıxış edir. Rusiya Ermənistanı dəstəkləməklə öz siyasi xəttini nümayiş etdirir. Düzdür, bu şəraitdə Rusiya ilə açıq danışıqlara başlamaq bir qədər çətindir. Ancaq bunun vaxtı çoxdan çatıb. Biz Rusiya Ermənistana "İsgəndər-M" raketlərini göndərdiyi vaxt bu addımı atmalı idik. Rusiyanın bir quberniyasına çevrilən Ermənistanla danışıqların artıq heç bir əhəmiyyəti yoxdur" - ekspert deyib.

**Bu prosesin hansı formada olacağına gəlincə, politoloq hesab edir ki, ilk növbədə Rusiyaya onun bölgədə oynadığın destruktiv rolu anlada biləcək xüsusi bir formanı axtarıb tapmaq lazımdır:** "Rusiya ilə Qarabağ məsələsinin müzakirəsini açıq formada etmək olmaz. Gizli diplomatik kanallar vasitəsilə Rusiya ilə müəyyən danışıqlar aparmaq olar. Azərbaycan tədricən Rusiyanın bölgədə oynadığı rolu beynəlxalq təşkilatlara daşıya bilər. Bunun üçün əlverişli vəziyyətin yetişməsi də olduqca önəmlidir. Yəni Moskva ilə danışıqlar aparıb bu məsələlərlə bağlı müəyyən bir səviyyəyə nail olduqdan sonra Azərbaycan ya beynəlxalq təşkilatlara müraciət etməli, ya da özünə yeni tərəfdaşlar tapmaq üçün hərəkətə keçməlidir. Proses birbaşa Rusiya ilə mümkün danışıqların nəticəsindən asılı olacaq. Azərbaycana vədlər verib, Ermənistanı da özündən çıxartmağa çalışmaq perspektivi olan bir siyasət deyil. Bir reallıq da var ki, Rusiya hazırda təklənib".

Q.Hüseynlinin fikrincə, Türkiyə ilə də bu istiqamətdə danışıqlar aparmağa ehtiyac var: "Türkiyə Rusiya ilə barışığın doğurduğu əhval-ruhiyyənin təsirindən çıxa bilməyib. Türkiyənin Dağlıq Qarabağla bağlı bəyanatları, hələ ki vəziyyəti Azərbaycanın xeyrinə dəyişmək iqtidarında deyil. Hər halda, Türkiyə yaxın müttəfiqdir və maraqlarımızı bilir. Kifayət qədər təhlükəli olan bu situasiyanı Türkiyə ilə müzakirə edib ortaq bir anlaşmaya gəlmək mümkündür. Türkiyə ilə hərbi saziş imzalanmalı, ölkəmizdə türk hərbi bazalarının yaradılmasına başlanılmalıdır". Politoloq onu da bildirib ki, açıq surətdə Azərbaycanla hər cür strateji əməkdaşlığa hazır olan Pakistanla da bu istiqamətdə danışıqlar səmərə verə bilər".

*****

**Lakin nə qədər qəribə də olsa, erməni ekspert dairələrində ortaq ordu ilə bağlı bir elə məmnunluq yoxdur. Məsələn, bununla bağlı erməni politoloq, İrəvandakı Regional Tədqiqatlar Mərkəzinin direktoru Riçard Kirokosyanın özəl yanaşması var. Onun sözlərinə görə, erməni rus birləşmiş qruplaşmasının yaradılması olduqca təhlükəlidir, çünki:** "Bu, Rusiya üçün Dağlıq Qarabağda sülhməramlılar yerləşdirmək üçün mexanizm və ya keçid vasitəsi ola bilər. Rusiya Dağlıq Qarabağda hərbi qüvvə yerləşdirmək niyyətin əl çəkməyəcək və Moskva üçün bu təbiidir".

"Abxaziya və Cənubi Osetiyaya hərbi müdaxilə üçün Rusiyanın əlində əsas var idi. Moskva bunu onunla əsaslandırırdı ki, Abxaziya və Cənubi Osetiya sakinlərinin Rusiya pasportları var və o, öz vətəndaşlarını qorumağa borcludur. Dağlıq Qarabağın timsalında isə belə bir şey yoxdur. Demək, Rusiyanın bölgədə öz güc və təsirini artırması baxımından ortaq ordu riskli ola bilər" - Kirokosyan əlavə edib.

Ancaq bütün hallarda gerçək budur ki, Rusiya işğalçının əsas dayağı və himayəçisi olaraq qalır, onu nə qədər özündən asılı edə də, işğalçını cəzalandırmağa və Qarabağ düyününü açmağa da imkan vermir...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# İrəvanda panika: Azərbaycan Ermənistana gedən qaz kəmərini ala bilər

## Erməni nəşrləri əhaliyə satılan təbii qazın yenidən bahalaşacağı barədə də xəbərdarlıq edir



**"Gürcüstanın baş naziri Georgi Kvirikaşvili ötən şənbə bəyan edib ki, ölkənin neft-qaz korporasiyasının səhmlərinin 25%-i fond birjasında satışa çıxarıla bilər". Musavat.com-un məlumatına görə, bu barədə İrəvanda nəşr olunan "Joxovurd" qəzeti yazıb və diqqəti hadisələrin erməni tərəfi üçün olduqca xoşagəlməz inkişafının mümkünlüyünə çəkib.**

"Təhlükə ondadır ki, artıq Azərbaycanın Dövlət Neft Şirkəti - SOCAR qaz kəmərinin hamısını almaq niyyətində olduğunu bəyan edib. Yəni bizim üçün strateji, həyati əhəmiyyət kəsb edən qaz kəməri beləcə, tezliklə azərbaycanlıların mülkiyyətinə keçə bilər. Onlar da öz ovqatlarından asılı olaraq, Ermənistana qaz verilişini vaxtaşırı dayandıracaqlar", - deyə qəzet narahatlıqla qeyd edib.

**Nəşr daha sonra yazır ki, onun əməkdaşına bu mövzuda Gürcüstan parlamentinin deputatı David Çiçinadze ilə söhbət eləmək müyəssər olub:** "Deputat bildirib ki, hələlik bilavasitə satış prosesi başlamayıb. Hələ ki potensial alıcılardan sifarişlər də daxil olmayıb. Azərbaycan şirkəti ilə bizim hansısa qaz, nəqliyyat dəhlizimiz yoxdur. Bu səbəbdən, fikrimcə, hadisələrin bu cür inkişaf ehtimalı güclü deyil" - gürcü deputat erməniləri sakitləşdirməyə çalışıb.

**Qəzet bunun ardınca Gürcüstandakı Ermənistan səfirliyini fəaliyyətsizlikdə ittiham edib:** "Bəs Ermənistanın Gürcüstandakı səfirliyi nə ilə məşğuldur? Orada tam laqeydlik hökm sürür. Əldə elədiyimiz məlumata görə, səfir Yuri Vardanyan son vaxtlar öz şəxsi məsələləri, səhhətindəki problemlərlə bağlı tez-tez xarici ölkələrdə olur. Biz həmçinin məsələ ilə bağlı Ermənistan və Gürcüstan baş nazirlərindən şərh almağa çalışdıq. Ancaq günün sonuna kimi buna nail olmadıq və sorğularımız cavabsız qaldı".

***

**Bu arada başqa bir tanınmış erməni nəşri - "Aykakan Jamanak" əhaliyə satılan təbii qazın qiymətinin yenidən qaldırılacağı barədə bəd xəbər verib.**

**Qəzet yazıb:** "Ermənistanda ictimai xidmətlərin nizamlanması üzrə komissiya dünən "Qazprom Ermənistan" AC-nin yaxın üç il üçün investisiya proqramını dərc edib. Proqramdan belə aydın olur ki, növbəti ildə qazın qiyməti yenidən artacaq. Problem ondadır ki, hələ ötən il təsdiqlənmiş üç illik proqrama əsasən, 2017-ci il üçün "Qazprom Ermənistan" 13,6 milyard dram məbləğində sərmayə nəzərdə tutur. Bu məbləğ də tarif hesablamalarına daxil edilib. Ancaq bu şirkətin keçmiş baş direktoru Karen Karapetyan baş nazir təyin olunandan sonra qərara alındı ki, Ermənistanda qaz tariflərini aşağı salmaq lazımdır və yeni proqrama əsasən, növbəti il üçün investisiyanın həcmi 35 milyard dram təşkil etməli idi. Sərmayənin belə kəskin azalması məhz qiyməti aşağı salmaq zərurəti ilə bağlı idi. Lakin 2018-ci ildə yenidən daha böyük investisiya - 18 milyard dram yatırım nəzərdə tutulur. Bu, təzədən tarifə daxil ediləcək və qiymət artımına gətirəcək. Başqa sözlə, proqram tariflərə uyğunlaşdırılıb. Halbuki, əksi baş verməli idi. Bu da onu sübut edir ki, tarifləri aşağı salmaq siyasi qərar olub".

Qeyd edək ki, Ermənistanın əsas qaz təchizatı Rusiyanın hesabınadır. Rusiya bu ölkədən keçib işğalçı ölkəyə daxil olan qaz kəmərinə görə Gürcüstana tranzit haqqı ödəyir. Tiflis tranzit haqqını da elə natura şəklində - yəni Rusiya qazı şəklində alır. Ermənistan İranın hesabına Rusiyadan qaz asılılığını minimuma endirməyə çalışır. Gözlənilir ki, prezident Həsən Ruhaninin qarşıdakı İrəvan səfəri zamanı bu məsələ də diqqət mərkəzində olacaq.

❑ Siyasət şöbəsi



# Zakir Həsənov Sərkisyanla yanaşı durmaqdan imtina etdi

**Moskvada MDB müdafiə nazirlərinin toplantısının yekununda nazirlər birgə foto çəkdiriblər. Virtualaz.org xəbər verir ki, Azərbaycanın müdafiə naziri Zakir Həsənov Ermənistanın müdafiə naziri Vigen Sərkisyanla yanaşı durmaqdan imtina edib və bacardığı qədər onu özündən aralayıb.**

Belə ki, protokola görə hər ölkənin müdafiə naziri öz ölkəsinin bayrağı qarşısında dayanmalı idi. Əlifba qaydasına görə Azərbaycan və Ermənistan bayraqları yanaşı qoyulub, nəticədə Zakir Həsənov da istər-istəməz Vigen Sərkisyanla yanaşı dayanıb foto çəkdirməliydi. Lakin Zakir Həsənov Sərkisyandan uzaq durmaq üçün MDB-nin icraiyyə komitəsinin sədri Sergey Lebedevi kənara sıxışdırıb və nəticədə MDB bayrağı ilə Azərbaycan bayrağı arasında dayanıb, eyni zamanda Sərkisyandan aralanıb.

Erməni mənbələri bildirir ki, bundan əvvəlki toplantılarda da Azərbaycanın müdafiə naziri keçmiş nazir Seyran Ohanyandan və Ermənistan bayrağından mümkün qədər aralı durmağa çalışıb.

# Ərdoğanla Putin arasında telefon diplomatiyası-üçüncü zəng

## Türkiyə ordusunun Əsədi devirmək üçün Suriyaya girməsi bəyanatı Putini bir həftədə üçüncü dəfə Ankaraya telefon açmağa vadar elədi



**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Suriya açıqlaması gündəmin əsas hadisələrindən birinə çevrilib. Onun "dövlət terroru həyata keçirən zalım Əsədin hökmranlığına son qoymaq üçün Suriyaya girdik, başqa bir şey üçün deyil" sözləri Rusiya və İranda ciddi narahatlıq yaradıb. Tehran və Moskva Ankaradan izahat tələb edib.**

Rusiya xarici işlər naziri Sergey Lavrov Ankaraya səfərə gedəcək. Rusiya prezidenti Putin prezident Ərdoğanla son bir həftədə 3-cü dəfə telefonla danışıb. Telefon danışığında məhz Suriyadakı vəziyyət, eləcə də Ərdoğanın məlum bəyanatını müzakirə etdiyi güman edilir. Rusiyanın RİA agentliyi isə Yuri Uşakova istinadən Ərdoğanın Əsədlə bağlı sözlərinə aydınlıq gətirdiyini bildirib. Yuri Uşakov bildirib ki, iki lider arasındakı telefon danışıqları zamanı bu məsələyə də toxunulduğu, ancaq açıqlamanın nədən ibarət olduğunu deməyib.

Qeyd edək ki, Türkiyə liderinin bu açıqlaması həm Moskvada, həm də Tehranda ciddi narahatlıq yaradıb. Çünki bu, faktiki olaraq bölgədə yeni situasiya yaranmasıdır. Məlum olduğu kimi, Türkiyə ordusu quru qoşunları avqustun 24-də "Fırat Kalkanı" əməliyyatı çərçivəsində Suriya ərazisinə daxil olub. Eyni zamanda Türkiyə hərbi aviasiyası Suriya torpaqları üzərində reydlər keçirərək İŞİD və YPG-nin mövqelərini bombalayıb. Həmin vaxt bu əməliyyatın Rusiya ilə razılaşdırıldığı bildirilirdi. Çünki ona qədər, yəni ötən il noyabrın 24-də Rusiya təyyarəsi vurulduqdan sonra Rusiya Suriya ərazisinə S-400 hava hücumundan müdafiə sistemləri quraşdırıb və bu səbəbdən Türkiyə hərbi aviasiyası Suriya ərazilərində əməliyyat keçirə bilməyib. Türkiyənin bir il fasilədən sonra quru qoşunları ilə birlikdə Suriyaya daxil olması ilk olaraq Rusiya ilə razılaşdırıldığı anlamına gəldi. Daha sonra bu faktı ərəb mediası da yazdı.

Türkiyə baş nazirinin müavini Nurəddin Canikli TGRT telekanalına açıqlamasında bu iddianı qismən təsdiqləyib. Canikli deyib ki, Rusiya ilə münasibətlərdə müsbət dəyişiklik olmasaydı, "Fırat Kalkanı"nda bu qədər rahat davranmaq mümkün olmazdı. Eyni zamanda o bildirib ki, Rusiya ilə yaxınlaşmaya baxmayaraq, Ankaranın Suriya siyasi kursu dəyişilməz olaraq qalır. Ancaq aydın məsələdir ki, Suriya siyasətinin dəyişməsi bir başqa, amma Suriya ərazisinə ordu göndərmək tamam başqa bir məna daşıyır. Türkiyə ordusunun Suriya ordusu ilə savaşa girməsi bu ölkədə xaos və fəlakəti daha da dərinləşdirir, üstəlik, ilk xarici hərbi müdaxilə kimi ciddi beynəlxalq skandala çevrilə bilər. Eyni zamanda Türkiyənin özü üçün də ciddi qınağa çevrilə bilər. Bu mənada aydındır ki, Ankara Bəşər Əsədin devrilməsini istəsə də, indi Suriyaya müharibə elan etmək niyyətində deyil. Ancaq Türkiyə ordusunun Suriyaya girməsinin bir Rusiya-Türkiyə anlaşması olduğu, Fəratın sol sahili qarşılığında Ankaranın Hələbi Əsədə güzəştə getməsi ilə bağlı iddialar Türkiyə üçün ciddi başağrısına çevrilir. Görünür, bu səbəbdən prezident Ərdoğan bu dəfə daha sərt açıqlama vermək məcburiyyətində qalıb.

Ancaq aydın məsələdir ki, bu bəyanat Rusiya və İran kimi Bəşər Əsədə dəstək verən ölkələri narahat edir. Türkiyə ordusu faktiki olaraq Suriya ərazisindədir və hərbi əməliyyatlarını davam etdirir. Ortada konkret olaraq hansı anlaşmanın olduğu bəlli deyil, amma günlərin birində və ya bəlkə elə indi Türkiyə ordusunun Suriya hökumət qüvvələrinə qarşı savaşa qatılması situasiyanı dəyişə bilər.

Qeyd edək ki, dekabrın 1-də Antalya şəhərində Türkiyə-Rusiya birgə Strateji Planlama Qrupunun toplantısı öz işinə başlayıb. Toplantıda iştirak etmək üçün Rusiya XİN rəhbəri Sergey Lavrov Antalyaya gedib. Eyni zamanda dekabrın 6-da Türkiyənin baş naziri Binali Yıldırım Moskvaya səfər edəcək.

Qeyd edək ki, bundan əvvəl Rusiya xarici işlər nazirinin müavini Mixail Boqdanov bildirib ki, Türkiyə hökuməti Bəşər Əsədə qarşı müharibəyə başlayarsa, bu, Ankaranın imzaladığı beynəlxalq anlaşmalara ziddir.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 268 (6589) 2 dekabr 2016

# Maliyyə naziri ittihamlara niyə cavab vermir?

## İlham İsmayıl: "Samir Şərifov ittihamlara cavab verмədikcə, cəmiyyət arasında günahkar olaraq qalacaq"

**Azərbaycan Beynəlxalq Bankının (ABB) İdarə Heyətinin keçmiş sədri, hazırda həbsdə olan Cahangir Hacıyevin məhbəsdən göndərdiyi sensasion müraciət ölkə gündəmini silkələyib. Sabiq bankir məhkəmə proseslərində olduğu kimi, yenə də maliyyə naziri Samir Şərifovu hədəfə alıb.(Bu barədə ətraflı səh-5-də oxuya bilərsiz-red.)**


Samir Şərifov

Sabiq bankirin son müraciəti ilə bağlı mövqelər birmənalı deyil. Onun müraciətində bəzi həqiqətlərin olduğunu deyənlər də, Hacıyevin maliyyə nazirini hədəfə götürməsinin arxasında şəxsi ədavətin olduğunu iddia edənlər də var.

**Sabiq MTN polkovniki İlham İsmayıl bildirdi ki, sabiq bankirin müraciətində kifayət qədər həqiqət var:** "Ölkənin maliyyə, iqtisadi təhlükəsizliyində bir bank müdirini günahlandırmaq düzgün deyil. Təbii ki, Cahangir Hacıyev aydan arı, sudan duru deyil. Özünün kifayət qədər günahları var, öz bankı ilə bağlı çoxsaylı qanun pozuntularına yol verib. Bu gün də onun cəzasını çəkir. Amma bir bank ölkə maliyyəsini çökdürə bilməz. Bu baxımdan, Hacıyevin dediklərində həqiqət var. Amma bir məsələdə yalnız maliyyə nazirini günahlandırmaq da düzgün deyil. Ölkədə baş verən maliyyə böhranını nə bank rəhbərində, nə də maliyyə nazirində axtarmaq lazımdır. Ölkəyə daxil olan kapital, onun necə xərclənməsi idarəetmədən asılıdır".

**Sabiq MTN polkovniki gedən proseslərdə sabiq bankirin əsas fiqur kimi qurban verildiyini söylədi:** "Tarixən belədir, yüz nəfər günahkardırsa, çalışırlar ki, bütün günahları 1 və 2 nəfərin üzərinə yükləsinlər. Cahangir Hacıyevin günahları var, amma bütün günahları onun üzərinə yükləmək düzgün deyil. Cahangir Hacıyevin həbsindən sonra özünün dili ilə desək, Beynəlxalq Bankın maliyyələşdirdiyi layihələrin dayandırılması belə düzgün deyildi. Əgər normal layihələr idisə, davam etdirilməli idi".

**İ.İsmayıl ABB-nin sabiq rəhbərinin maliyyə nazirini əsas hədəfə almasının səbəblərini də açıqladı:** "Cahangir Hacıyevin bir nəfəri günahlandırması şəxsi ədavətdən irəli gələ bilər. Bu şəxsi ədavət onun həbsindən əvvəl başlayıb. Zaman-zaman bunlar üzə çıxıb. Təkcə Cahangir Hacıyevlə deyil, onun qohumu olan sabiq MTN rəhbəri ilə şəxsi ədavətin olduğunu da hamı bilirdi. Onun nəticəsidir ki, günahları bir-birilərinin üzərinə yıxırlar. Samir Şərifov bu ittihamlara cavab vermir. Bəlkə də onlar düşünürlər ki, cavab verməsələr daha yaxşıdır. Amma o, ittihamlara cavab vermədikcə, cəmiyyət arasında günahkar olaraq qalacaq. Nəzərə alaq ki, maliyyə nazirinin susqunluğuna artıq adət etmişik. Bir müddət öncə onu üç ölkənin agenti adlandırdılar, lakin o bir kəlmə də buna münasibət bildirmədi. Ən azından məhkəməyə verməli idi, bu ittihamı səsləndirən şəxsi. Niyə susur, nə üçün susur, onun şəxsi məsələsidir. Cahangir Hacıyev bu komandanın üzvü idi. Özü də bank sektorunda vacib fiqurlardan sayılırdı. O, bu komandaya yaxşı bələddir. Məhkəmədə boşuna demədi ki, mən yazılmış və yazılmamış qanunlara əməl etmişəm. Prosesləri o yaxşı bilir. Çox güman ki, onun bəyanatları tək özünün beyninin məhsulu deyil. Hansısa məsləhətlərin, pasvermələrin nəticəsidir. Bu komandanın üzvü olan Cahangir Hacıyev oyun şərtlərini yaxşı bilir. Həbsxanadan o yana yolu yoxdur. İntihar həddinə də çatdıra bilməzlər. Özü də hiss olunur ki, mübarizliyi də var. İtirəcək bir şeyi qalmayıb. Sadəcə, oyun şərtlərini nəzərə alaraq, susqunluğunu pozur. Bu pozulma hələ davam edəcək".

❑ Cavanşir ABBASLI

# Artur Rasi-Zadəni gənc kadr əvəzləsə...

## Baş nazirin dəyişməsi problemlərdən çıxış yoludurmu?

**Rusiyada iqtisadi böhranın dərinləşdiyi vaxtda prezident Vladimir Putin maliyyə nazirinin müavini Maksim Oreşkinə İqtisadi İnkişaf Nazirliyinə rəhbərlik etməyi təklif edib. M.Oreşkin dövlət başçısının təklifini qəbul edib. Beləliklə, 34 yaşlı M.Oreşkin Nazirlər Kabinetində ən gənc nazir olub.**

Xatırladaq ki, 2 milyon dollar məbləğində rüşvət almaqda ittiham olunan Rusiyanın sabiq iqtisadi inkişaf naziri Aleksey Ulyukayevə qarşı ötən ay cinayət işi açılıb.

Azərbaycanda da son vaxtlar hakimiyyət rəsmiləri də çıxışlarında iqtisadi, maliyyə problemlərinin yarandığını dilə gətirirlər. İqtisadi-sosial durumu bahalaşma daha da ağırlaşdırır.

Bir sıra siyasətçilər ölkədə sosial-iqtisadi vəziyyətin ağırlaşmasında hökuməti günahkar sayırlar və bildirirlər ki, hökumətin başçısı olan Artur Rasi-Zadə və iqtisadi sahəyə cavabdeh olan nazirlər vəzifədən getməlidir. Baş nazir postuna gənc, enerjili, müasir iqtisadiyyatı bilən savadlı kadr təyin edilməlidir.

Bəs Artur Rasi-Zadə istefa versə və vəzifədən çıxarılsa, onun yerinə gənc, enerjili bir kadr təyin edilsə, ölkədəki iqtisadi-sosial problemlərin həllinə təsiri olarmı?


Artur Rasi-Zadə

**Gənc Demokratlar İnstitutunun rəhbəri Yeganə Hacıyeva** öncə bildirdi ki, hər hansı bir siyasətçinin və ya iqtisadçının iqtisadi-sosial sahədə vəziyyətin hansı səviyyədə olması haqqında danışması üçün onun buna əsası olmalıdır. Əsas kimi isə mötəbər mənbələrin, beyin mərkəzlərinin sorğuları əsasında tərtib edilmiş araşdırmalar, məlumatlar ola bilər. Bunlar olmadan ölkədə iqtisadi-sosial durumun böhranda olduğunu söyləmək qeyri-dəqiqlik olardı: "İqtisadi vəziyyətdə problemlərin yarandığı fikirləri ilə qismən razılaşsam da sosial sahədəki vəziyyətin ağırlaşması haqqında heç nə deyə bilmərəm. Çünki bizim ölkədə bu sahəni mütəmadi araşdıran, əhali arasında sosioloji sorğular aparan, onların əsasında dövri hesabatlar hazırlayan və ən əsası bu fəaliyyəti mövsümi deyil, davamlı aparan bir təşkilat, qurum və ya mənbə yoxdur. Ancaq zaman-zaman hökumətin bu sahə ilə bağlı hesabatları ilə tanış ola bilirik . O hesabatlarda isə vəziyyətin ağırlaşması haqqında məlumatlar əks olunmur. Sosial sahədə araşdırmaçı və ya ekspert kimi tanınmayan siyasətçilərin bu sahədə vəziyyətin necə olması haqda fikirlərini isə spekuliativ qəbul edirəm. Belə ki, onların bu fikirləri arqumentləşdirən, yuxarıda söylədiyim araşdırma və ya hesabatlar yoxdur".

**Y.Hacıyeva hesab edir ki, Artur Rasi-Zadənin yerinə gənc kadr təyin etməklə bütün problemlərin həll olunmasını gözləmək də yanlış olar:** "Əlbəttə ki, hökumətin başında duran bir şəxs kimi ölkədəki iqtisadi-sosial durumla bağlı ondan hesab sorulması, atılan addımlara görə onun cavabdeh sayılması normaldır. Ümumiyyətlə, hesab edirəm ki, istənilən sahədə yeniliyə açıq, savadlı, enerjili bir kadrın təyinatı inkişafa və uğura səbəb ola bilər. Amma dövlət idarəçiliyi sahəsi həm da böyük təcrübə tələb edən bir fəaliyyətdir. Dövlət idarəçiliyinin konsepsiyası nəzəri cəhətdən tədris oluna bilinsə də təcrübi fəaliyyət ondan çox fərqlənir. Odur ki, hökumət idarəetməsinə rəhbərliyi həyata keçirən icra orqanına başçılıq edəcək bir şəxsin bu sahədə nəzəri biliklərdən başqa, həm də dövlət idarəçiliyində təcrübəsi olmalıdır. Bu tələblərə cavab verən gənc kadr müəyyən edilsə və hökumətin başına gətirilsə, şübhəsiz ki, müəyyən müsbət effektiv fəaliyyət ortaya çıxar ki, bu da ümumi iqtisadi duruma müsbət dəyişikliklər gətirə bilər".

❑ Etibar SEYİDAĞA

# Baxçalının Türk Birliyi təklifinə Azərbaycandan reaksiya

## Sərdar Cəlaloğlu: "Türk Dövlətləri Birliyi yaratmaq olar"


Sərdar Cəlaloğlu

**Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalının Türk Birliyi yaratmaqla bağlı təklifi qardaş ölkə və Azərbaycanda ciddi maraq doğurub. Baxçalının Türk Birliyi ilə bağlı çıxışında əsas gündəm olan sitatları bunlardır: "Türkük, türkçüyük, Turanın sevda və hədəfindəyik. Nə Avropa Birliyi, nə Şanxay Əməkdaşlıq Təşkilatı, biz deyirik ki, sonuna qədər Türk Birliyi! Niyə Azərbaycanla bir olmayaq? 300 milyonluq Türk Dünyasıyla niyə bir olmayaq?"**

Xatırladaq ki, bu ideya ilk dəfə deyil səslənir. İndiyə qədər dəfələrlə Türkiyə və Azərbaycanda tanınmış elm adamları, siyasi xadimlər tərəfindən bu tipli ideyalar ortaya atılıb.

**ADP sədri Sərdar Cəlaloğlu** təxminən 26 il öncə "Yeni Müsavat"a açıqlamasında bu tipli ideya ilə çıxış edib. O, Ümumtürk Evinin yaradılması ideyasını irəli sürüb. D.Baxçalının belə təklif verməsi Azərbaycanda S.Cəlaloğlunun 26 il öncəki ideyasını yenidən gündəmə gətirib.

S.Cəlaloğlu açıqlamasında Ümumtürk Evi ideyası və MHP liderinin son açıqlaması ilə bağlı bunları dedi: "Türk siyasətinin istiqamətlərini təhlil edərkən, bu istiqamətlərdən biri olaraq Avropa Birliyinə uyğun Ümumtürk Evinin yaradılması ideyasını vermişik. Bura müstəqil türk dövlətləri, Rusiyanın tərkibində olan türk respublikaları, eləcə də dövlətləri olmayan türk toplumlarının nümayəndələri daxildir. Belə bir evin yaradılması təklifini zamanında irəli sürmüşük. Bütövlükdə türk xalqlarının problemlərinin bu birlik tərəfindən həll olunmasını istəyirdik. Buraya bütün sahələr aid idi. Bizim qurultayda o zaman türk səfiri də iştirak edirdi. Təklifimiz onların diqqətini cəlb etdi və sonradan bizə dedilər ki, Türkiyənin Xarici İşlər Nazirliyi sizin qurultayın mətnini istəyir. İlk dəfə Qara dəniz və Xəzər dənizi iş birlikləri ideyalarını vermişik. Hansı ki, sonralar bu ideyalarımız həyata keçib. İndi Azərbaycanın siyasi coğrafiyada həyata keçirdiyi ideyaları biz 1994-cü il qurultayında vermişik. Türk Evinin əsas məqsədi o olacaqdır ki, müstəqillik qazanmayan türk xalqlarının hüquqlarını da qorusun. İttifaqda ümumi mədəniyyət olacaqdır. Burada əsas ciddi manеə Özbəkistan idi. Çünki İslam Kərimovun vaxtında Özbəkistan, ümumiyyətlə, türk dünyasına inteqrasiya etmirdi. O vaxt Qazaxıstanın da mövqeyi birmənalı deyildi, amma indi kifayət qədər aktivləşib. Amma indi Türkiyə, Azərbaycan, Qazaxıstan və Türkmənistan bu birliyə tam hazırdır. Qırğızıstan və Özbəkistan da qoşulacağı təqdirdə, əslində Türk Evi yaradıla bilər. Beləliklə, bizləri təhdid edən xarici amillərdən qoruna bilərik. Gec-tez hamı bunu başa düşəcək. Çünki dünya artıq başqa müstəvidə fırlanır. Bir-birinə yaxın olan bütün toplumlar mərkəzlər yaratmalıdır. Bununla dünyada sülh və əmin-amanlığa nail olmaq mümkündür. Necə ki, belə birliklər yaranmayıb, mövcud olan birliklər dünyanın təhlükəsizliyini təmin etmək gücündə deyillər. Nə BMT, nə Avropa Birliyi, nə də ATƏT. Avropa Birliyi kimi, türklər öz klublarını yaratmalıdır. Avropa Birliyinin xristianlar klubu olduğunu hər kəs anlamalıdır. İslam klubunu yaratmaq çətindir. Amma etnik birlik yaratmaq mümkündür. Eyni coğrafiyadayıq, eyni tariximiz var, eyni dinimiz və mədəniyyətimiz var. Türk ölkələrinin özlərinəməxsus dəyərləri, sərvətləri, imkanları birlikdə olanda xarici təsirlərin qarşısında duruş gətirmək çətin olmayacaq".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 268 (6589) 2 dekabr 2016

# Siqaret bahalaşdı- qapalı məkanlarda tütün qadağası yenə gündəmdə

## Deputat və iqtisadçı ekspert problemdən danışdılar



**"Siqaret çəkmək qadağandır!" Bu sərlövhəni əksər restoranlarda, kafelərdə, ümumiyyətlə, qapalı məkanların demək olar, əksəriyyətində görürük. Ancaq bir çox restoranlarda buna məhəl qoyulmadığının da şahidi oluruq. Ailəvi restoranlarda, kafelərdə bəzən siqaret tüstüsündən göz-gözü görmür. Demək olar ki, bütün istirahət və əyləncə məkanları siqaret havasında çalışır. Hətta uşaqlar üçün nəzərdə tutulan əyləncə məkanlarında da bu məsələyə ciddi yasaq yoxdur.**

Xatırladaq ki, ötən il Milli Məclisdə qapalı məkanlarda siqaret çəkməyi qadağan edən qanun layihəsi müzakirəyə çıxarılsa da, bunun müsbət nəticəsi olmadı. Görünür ki, siqaret monopolistləri bu qadağanın qüvvəyə minməsində maraqlı deyillər. Milli Məclisin ötən iclasında bu məsələ yenidən gündəmə gətirilib.

Azərbaycandan fərqli olaraq digər dövlətlərdə isə qapalı məkanlarda siqaret çəkənləri ağır cəzalar gözləyir. Məsələn, bu ilin yanvarından Türkmənistanda tütün məmulatlarının satışı ilə mübarizə çərçivəsində dövlət səviyyəsində aparılan kampaniyadan sonra siqaretlər satışdan yığışdırılıb. Paytaxt Aşqabadda satış obyektlərində yoxlama aparılıb və sahibkarlar tütün məmulatları satışına görə 1700 dollar cərimə ilə hədələniblər. Siqaretin qiyməti 1,5-2 dəfə artıb.

Qeyd edək ki, bu ölkədə hələ 2000-ci ildə küçələr də daxil olmaqla, bütün açıq, qapalı ictimai yerlərdə siqaret çəkmək qadağandır. Hətta qonşu İranda belə keçən aydan etibarən ictimai yerlərdə siqaret çəkilməsi rəsmi olaraq yasaqlanıb. Qərara əsasən, İranda xəstəxanalar, teatr, hotellər, restoranlar və digər ictimai yerlərdə siqaret çəkilməsi və tütün məmulatlarından istifadə, hətta onun daşınması qadağan olunub. Qaydalar pozularsa, həmin şəxsləri böyük cərimələr və ya cəzalar gözləyir.

Türkiyədə də siqaret yasağı mövcuddur. Türkiyədə park, bağça, alış-veriş mərkəzləri, ibadət məkanları, yürüş yerlərində siqaret çəkmək olmaz. Azərbaycanda ölkədəki kişilərin təxminən 50 faizi gündəlik olaraq siqaret və digər tütün məmulatlarından istifadə edir. Bu qrupa daxil olan kişilərin 40 faizi gün ərzində, ən azı 1-2 qutu siqaret çəkir. Ümumiyyətlə isə Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda 15 yaşdan yuxarı əhalinin 17 faizi siqaret çəkir. Bunların 0,4 faizi 15-19 yaş, 15,2 faizi 20-44 yaş, 24,1 faizi 45-64 yaş, 16,6 faizi də 65 yaşdan yuxarı olanlardır. 15 yaşdan yuxarı olan kişilərin 35,5 faizi siqaret çəkir. Onların da 0,9 faizini 15-19 yaş, 31 faizini 20-44 yaş, 51,8 faizini 45-64 yaşa aralığında, 36,8 faizini də 65 yaşdan yuxarı olanlar təşkil edir.

**Deputat Fazil Mustafa bu məsələni parlamentin ötən iclasında müzakirəyə çıxartdığını dedi:** "Parlamentin ötən iclasında bu məsələ mənim tərəfimdən gündəmə gətirildi ki, Azərbaycanda neçə müddətdir ki, tütün məmulatlarının qapalı yerlərdə istifadəsi ilə bağlı qərar olsa da tütün sahəsinin inhisarını əlində saxlayan yaxud da bu sahəyə maraqlı olan qüvvələr qanunun qəbul olunmasında maraqlı deyillər. Yəni buna mane olurlar. Bu da açıq-aşkar onu göstərir ki, millətin bütövlükdə bu zərərli vərdişdən qurtarmaq üçün qarşısını almaq əvəzinə daha çox müəyyən qazanc əldə etmək niyyəti güdülür. Bu qanun layihəsi qəbul olunsa, elə belə qadağandır yazmaqla məsələ həll olunmur. Burada bilavasitə maddi məsuliyyət məsələsi qoyulmalıdır. Misal çəkdik ki, Türkiyədə məhz bu qadağaya görə siqaret çəkənlərin sayı 10 dəfəyə qədər azalıb. Bu, çox zərərli bir vərdiş olduğuna görə aradan qaldırmaq vacibdir. İndi müxtəlif kafe-restoranlarda yazırlar ki, siqaret çəkmək qadağandır. Amma bu qadağaya əməl edən yoxdur. Adamlar siqaret çəkməyə görə 70-100 manat cərimə olunsa, məcbur olub qadağanı pozmayacaq. Bunun yeganə yolu budur. Mən hətta parlamentin ötən iclasında xanım millət vəkillərinə müraciət etdim ki, onlar bu işə öz ağırlıqlarını qoysunlar. Bunun bir kampaniya kimi həyata keçməsinə köməklik göstərsinlər. Parlamentin vitse-spikeri Bahar Muradova da bildirdi ki, bu həm də maddi ziyandır, biz də bunu dəstəkləyirik. Ona görə də, məncə, bu məsələ aktual müzakirə olunası məsələdir və mətbuatın da bu məsələdə dəstək verməsi vacibdir ki, qapalı yerlərdə ümumiyyətlə siqaret çəkmək qadağan olunsun".

Xatırladaq ki, ölkəmizdə siqaretlərin bir qisminin qiymətində yenidən təqribən 5-17 faiz artım müşahidə edilir. Satış mərkəzləri qiymət artımına səbəb kimi dolların manata nisbətən hər gün bahalaşmasını göstərirlər. Artımla siqaretlərin hazırkı qiyməti bu cürdür:

Winchester (compact) yeni qiymət 1.70 AZN (əvvəlki qiymət 1.60 AZN), Winchester (qalın qutu) - 1.50 AZN (1.40 AZN), West (qalın qutu) - 1.70 AZN (1.60 AZN)

West (compact) - 1.90 AZN (1.80 AZN), More - 1.50 AZN (1.40 AZN), Yava - 1.50 AZN (1.40 AZN),

Viceroy (compact) - 1.70 AZN (1.60 AZN),

Rothmans (compact) - 1.90 AZN (1.80 AZN),

Classic (compact) - 1.70 AZN (1.60 AZN),

Classic (uzun) - 1.80 AZN (1.70 AZN) Classic (qalın qutu) - 1.60 AZN (1.50 AZN),

Prima - 1.40 AZN (1.20 AZN).

İqtisadçı ekspert Natiq Cəfərli siqaretlərin qiymətinin yenidən bahalaşmasının sırf məzənnə ilə bağlı olduğunu dedi: "Siqaret Azərbaycan yazıları ilə satışa çıxsa da, yerli istehsal deyil. Yəni onun xammalı da, istehsalı da xaricdə olur. Sadəcə olaraq, Azərbaycan üçün nəzərdə tutulur. Ona görə də məzənnənin artması, son zamanlar manatın rəsmi məzənnəsinin 1,73-ün üzərinə çıxması və dolların təqribən satışı çox zaman 1.80-lə həyata keçirilir. Bu məzənnə dəyişikliklərinə görə də siqaretin qiymətində artım müşahidə olunur. Amma bazarın özü tamamilə inhisarçı bir bazardır. Yəni bir şirkətin ciddi dominant olduğu bir bazardır".

❑ **Günel MANAFLI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbəbəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

YENİ MÜSAVAT
N 268 (6589) 2 dekabr 2016




Cümə söhbətləri

# Dünyagörüşünün fitrətə uyğunluğu

**Bismilləhir-Rahmənir-Rahim! Ötən bəhsimiz İlahi dünyagörüşü ilə bağlı giriş bir hissəyə aid idi. Ona toxunduq ki, dünyagörüşü nədir, İlahi dünyagörüşü nədir, maddi dünyagörüşü nədir, İlahi və maddi dünyagörüşlərinin fərqi nədədir, dünyagörüşü ilə bağlı bəhsin əhəmiyyəti nədədir və dünyagörüşünün insanın həyatında rolu və əhəmiyyəti nədir.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Qeyd etdik ki, dünyagörüşü çox sadə sözlərdən təşkil olunub: dünya və görüş. Yəni insanın dünyaya aid olan görüşü, insanın dünyaya aid olan baxışı. Araşdırdıq ki, bu, “haradan gəlmişik?”, “haradayıq?” və “hara gedirik?” suallarının cavablarından formalaşır.

### Daşla insanın nə fərqi?

Çox sadə dillə desək, əgər insan desə ki, Allahdan gəlmişəm, Allahdayam və Allaha doğru gedirəm - onda bu insanın dünyagörüşü olur İlahi dünyagörüşü. Yəni elə-belə yaranmamışam, burada da elə-belə deyiləm, Allaha doğru gedirəm, Allah məni buraya bir imtahan üçün göndərib, sonda da Allahın dərgahına gedəcəyəm. Belə dünyagörüşlü insan deyir ki, hara baxırsa, İlahi nişanələri görürəm. Bu dünyagörüşü insana prioritetlər müəyyən edir. Deyir, əgər gedəcəyin yer bəllidirsə, oraya uyğun azuqə tədarük etməlisən. İmtahan üçün bu dünyaya gəlmisənsə, gərək bu sınaqlardan ləyaqətlə çıxasan. İlahi dərgahda üzü ağ olasan. İzzətli bir durumda bu dünyanı tərk edəsən.

Maddi dünyagörüşü ilə bağlı bildirdik ki, deyir elə maddədənəm, maddədəyəm və maddəyə doğru da gedirəm. Maddi dünyagörüşünə görə alüminiumla insanın arasında fərq yoxdur. Küçədəki qəmbər daşı ilə insan arasında fərq yoxdur. Vicdan, şüur, məhəbbət, eşq, Vətəni sevmək - bunlar hamısı mənasız bir kateqoriyaya aid olur. Zira, alüminiumun, dəmirin, taxtanın məhəbbəti, sevgisi ola bilər? Yox! Daşın vicdanı ola bilər? Yox!

Bu, elə-belə söz deyil. Bu, çox fundamental bir bəhsdir və sadəcə olaraq, burada onu sadələşdirmişik. Yəni maddi dünyagörüşlü insan vicdandan, sevgidən, məhəbbətdən danışanda, bu, qeyri-ciddi alınır. Çünki onun dünyagörüşündə bu cür məsələlərə əslində yer qalmayıb. Misal üçün, "alüminiumun qeyrəti» desək, çox gülünc səslənər. Ona görə bu məsələyə diqqət yetirmək çox mühümdür.

### Dünyagörüşü vəziyyəti müəyyənləşdirir

İnsanın dünyagörüşü onun vəziyyətini müəyyənləşdirir. Ona görə çox vaxt özlərini maddi dünyagörüşünə aid edən insanlar, özləri də bilmədən, heç də maddi dünyagörüşünə aid deyillər. Özlərini çaşdırıblar, elə bilirlər materialistdirlər, amma əslində elə İlahi dünyagörüşündədirlər. Özləri etiraf etməsələr də, əslində bilirlər ki, bu yaradılışı, nəzmi, qanunauyğunluğu xəlq edən və tənzimləyən bir qüvvə var və bu qüvvənin aliliyi onlar üçün aydındır.

İlahi dünyagörüşü deyir ki, sən təsadüfi deyilsən, burada da səmərəli yaşamalısan və necə yaşamağından asılı olaraq, bəhrəsini də görəcəksən. Elə bu baxımdan bəhsin əhəmiyyəti çox mühümdür. Görək hansı dünyagörüşü insan üçün daha mühümdür. Qeyd etdik ki, həyatımızda bu məsələnin rolu çox böyükdür, insanın rəftarına birbaşa təsir göstərir. Birbaşa əxlaqına, davranışına, əməlinə təsir göstərir.

Gəldik çıxdıq ona ki, ən yaxşı və ən üstün dünyagörüşünün xüsusiyyətləri hansılardır. Beləsi üç idi:

**1)** ağıl; **2)** fitrət və **3)** məsuliyyət.

Demək, burada üç mühüm xüsusiyyət var. Birincisi ağılla uyğun gəlməkdir. O dünyagörüşü, o məktəb ki, deyir, ağıl, məntiq, fəlsəfə lazım deyil, bilin ki, orada vəziyyət xarabdır. Dəqiq xarabdır.

Beləsi deyir ancaq mən deyən düzdür. Məsələn, bütpərəstə sual vermək olmaz ki, niyə belədir. O, hesab edir ki, ən düzgün yol budur.

İslamın gözəlliyi də bundadır ki, deyir, bunları şüurlu surətdə əldə etməlisən. Deyir, üsuliddin - dinin kökləri düşüncə ilə əldə edilməlidir. Əsaslı olmalıdır. Deməli, birinci amil - əql çox mühüm məsələdir.

### Müəyyənedici amillərdən ikincisi: fitrət

İkinci məsələ - fitrətdir. Yəni, əqidə insanın fitrəti ilə uyğun olmalıdır. Və bəhsimiz fitrətlə bağlı olacaq.

Üçüncü amil insana məsuliyyət verməklə, məsuliyyət müəyyən etməklə bağlıdır. Bu yanaşma insana ümid verir və ən əsası - insana məsuliyyət verir.

Biz hamımız yaradılmışlardanıq. Demək, nəticələrik və bu nəticələrin bir səbəbi olmalıdır. Bu böyüklükdə harmoniya var, qayda var, hər şeydə həmahənglik var. Trilyonlarla proseslər hər an əlaqələndirilir, tənzimlənir. Düşünən adam üçün elə bu üzdə olan amil - Yaradana, Nəzm edənə bir sübutdur. Məsələn, Günəş bir gün müəyyən vaxtdan on dəqiqə tez, ya on dəqiqə gec çıxmır. Ulduzlar bir gün elə, bir gün belə olmur. Ay özünü bir gün elə, bir gün başqa cür aparmır. Yaxud, bizim bədənimizdə molekullar özünü bir gün belə, bir gün ayrı cür aparmır.

Bütün bu məsələlər göstərir ki, bir dəqiq nəzm var. Yaxşı, insan bir cihaz, məsələn, fotoaparat düzəldəndə deyilir ki, bir ağıl olub, bir şüur olub bunun hazırlanmasında. Bunun bir düzəldəni var. Və hər hansı bir düzəldilən şeyə aid də eləcə. Adicə bir ağacın şəklini çəkirik, deyirik nə qəşəng şəkildir, bunu çəkən var ki, bu cür qəşəng şəkil olur. Onda bu ağacın, quşun, heyvanın, insanın da, təbii ki, bu cür gözəl yaradanı da var axı. Bunlar sadə məntiqlə qavranılan bir həqiqətlərdir.

Bəhsimiz fitrətlə bağlı olan bir bəhsdir. Görək tövhid bəhsinin insanın fitrəti ilə nə qədər uyuşması var. Qeyd edək ki, fitrət özü xilqət - yaradılış sözü ilə həm eyni vəzndədir və həm də eyni mənadadır. Eyni vəzndədir - yəni fitrət elə xilqət kimi oxunmalıdır. Fitrət - necə ki, xilqət. Mənası da çox yaxındır. Fitrət sözü haqqında çox danışmaq olar. Amma belə bir təqribi məna vermək olar ki, hər bir duyğu, hər bir hiss, hər bir dərk, hər bir anlam ki, insanda mövcuddur və əmələ gəlməsində müəllimə, dərsə, öyrənməyə, məşqə, təlimə ehtiyac yoxdur və o duyğu, o dərk və o hiss insanda daimi, həmişəlikdirsə, və bunlar bütün insanlarda, bütün məkan və zamanlarda sabit olarsa - bunlara fitri deyirlər.

Buna uyğun gələn xüsusiyyətlər insanın fitrətinə aiddir. Misal üçün, ananın uşağa sevgisi, ananın uşaqla olan rabitəsi, ananın uşaqla olan münasibəti - bu, fitrətdə olan bir məsələdir. İstəyir bu ana Bakıda yaşasın, istəyir Fransada yaşasın, istəyir Afrikada yaşasın. Harada ana var - orada övladına qarşı çox böyük diqqətlilik var. İstəyir bu gün yaşasın, istəyir beş-on əsr bundan qabaq yaşasın, istəyir beş-on əsr bundan sonra yaşasın. İstəyir şəhərdə yaşasın, istəyir kənddə yaşasın. Ana və övladın arasında münasibət dəqiqdir, fitridir.

Deməli, buradan aydın olur ki, o məsələlər ki, insanın təbiətində var - bunlar insanın fitrətində var. Bunlar bütün bu parametrlərə malik olurlar. Özü də məşqlə, öyrənməklə, müəllimlə, dərslə-filanla əmələ gələn məsələlər deyil. Belə deyil ki, anaya dərs keçirlər, sonra o, başlayır uşağına məhəbbət bəsləməyə. Bu, bir təbii haldır ki, ananın uşağına, körpəsinə sevgisi olur.

### İnsanın Allahı tanıması - fitri hissdir

İnsanın Allahı tanıması nə qədər fitridir? Nə qədər fitrətlə uyğun gəlir? Nə qədər insanın fitrəti ilə bunun uyğunluğu var? Hər hansı insandan soruşsaq - şəhərdə yaşayandan da, kənddə yaşayandan da, dövlətlidən də, kasıbdan da, cavandan da, qocadan da - fərqi yoxdur, əgər ona bu sualı versək ki, sən özünü müstəqil, ehtiyacsız bir varlıq bilirsən ya yox, deyəcək yox. Mən özümü yaşayışımda kənar qüvvədən asılı, ehtiyaclı bir varlıq bilirəm.

Əgər birdən biri tapılsa ki, desə yox, mən elə ehtiyacsızam, onun üçün çox sadə sübut yolu var. Sadəcə olaraq, bir neçə dəqiqə nəfəs almasa, dəqiq bilər, aydınlaşdırar özü üçün ki, mövcudiyyəti haradandır. Ayıq adam dəqiq bilir ki, ehtiyaclıdır.

Söhbət gedir normal insandan. Normal insanlar hamılıqla qəbul edirlər ki, kənar təminatdan, vücudvermədən ehtiyaclı və asılıdırlar. Bu hiss insanda var. Bunu insan ali riyaziyyat keçmədən də başa düşür, çoxlu dil bilsə də, bilməsə də başa düşür. Hər bir insan bilir ki, asılıdır, ehtiyaclıdır. Özü üçün bu duyğusu var. Bu, birmənalıdır.

Məsələ çıxır ki, yaxşı, insanda bu duyğu var, bəs bu duyğu nə ilə ödənilir? Bu hissi insan nə ilə ödəyir? Nə ilə doyuzdurur? Deməli, insanın o duyğularını doyuzdurmaq iki cür olur:

**1)** həqiqi doyuzdurma;

**2)** yalançı doyuzdurma.

Sadə bir misal. Uşaq acdır, ağlayır. Uşağın aclığı realdır. Acdır, ona görə də ağlayır. Uşağa yemək verəndə uşaq həqiqətən doyuzdurulur. Aclıq hissi ki, var bunda, ağamaqla siqnal verir. Bildirir ki, mən acımışam. Ağlayır, buna gərək yemək verəsən. Buna yemək versən, onda gerçəkdən ödəyirsən onun istəyini. Bunun əvəzində yalandan da ödəyə bilərsən onun o hissini. Ona əmzik vermək olar və uşaq sorur və süni surətdə aclıq duyğusunu aradan aparır.

Yəni yemək də vermək olar və süni ödəmə də etmək olar. Hər iki hal mümkündür. İndi insanın bu cür də duyğusu var ki, o, asılıdır və ehtiyaclıdır. Bu asılılığı ilə bağlı nədən asılıdır, nəyə bağlıdır, nəyə ehtyaclıdır - bununla bağlı insanın bir söykənəcəyi olmalıdır. İnsan anlamalıdır ki, bu haradan başlayır.

### Fitri hissin süni və təbii ödənilməsi

Burada da iki cür olması mümkündür insanda. Mümkündür ki, insan bu duyğusunu 2 cür həll etsin:

**1)** bir var desin Allah var və Rəbbim ödəyir mənim ehtiyacımı. Həm yaradıb, həm yaşayış ərzində mənim ehtiyaclarımı ödəyir;

**2)** bir də var desin, misal üçün, təbiət yaradıb məni. Burada dərhal sual çıxır ortalığa. Bəs təbiətin özü nədir? Təbiətin özü ehtiyaclıdır, ya ehtiyacsızdır? Bir qədər dərinə gedəndə, məlum olur ki, təbiət özü də ehtiyaclıdır. Təbiətin özünün də bu ehtiyacını ödəyən lazımdır.

Və beləliklə, silsilə ilə, nəticə etibarilə gəlib çıxır ki, insan bu duyğusunu iki cür ödəyə bilər:

**1)** sadiq ödəmə, həqiqi ödəmə ki, gəlib çıxır ona ki, məni Allah yaradıb.

**2)** süni ödəmə, yalançı ödəmə. Özünü nə iləsə rahatlayır. Deyir, təbiət mənim bu ehtiyacımı ödəyir.

Bir xüsusiyyəti də var fitri məsələlərin. İnsanın fitri duyğuları ödənəndə, gözəl ödənəndə fəxr hissi keçirir, qürur hissi keçirir. Ana uşağını bağrına basanda fəxr edir. Sevinir, qürur hissi keçirir. Bu, bütün fitri dərklərin və bütün fitri xüsusiyyətlərin bir əlamətidir. O cümlədən də Allahı tanımada, Tövhid tanımada da bu məsələyə diqqət yetirmək olar.

İndi nəzər salaq ki, peyğəmbərlərin əsas işi nədir? Əsas funksiyası nədir? Peyğəmbərlərin (ə) əsas funksiyası, əsas işi budur ki, qoymasınlar insanlar özlərinin bu lətif və düzgün duyğularını, düzgün olan bu fitri dərklərini süni, yalançı nələrləsə ödəsinlər, insanlar özlərini aldatsınlar.

Deməli, peyğəmbərlərin funksiyası bənzəyir ananın funksiyasına ki, uşaq acıyanda və yemək istəyəndə çalışır ki, yemək istəyini ödəmək üçün buna uyğun yemək versin. Ananın ürəyi dözməz ona ki, uşaq ac olsun və uşağın başını nə iləsə aldadsın.

O cür də peyğəmbərlərin (ə) funksiyası var ki, həmin o yalançı və süni ödəmələri kənara qoysunlar və doğru, fitrət üçün doğru olan ödəmələri təqdim etsinlər. Buradan belə bir məsələ çıxır ki, insan tapınmalıdır Allaha, insan tapınmalıdır Rəbbin varlığına. Tövhid buna gətirib çıxarır ki, insan anlayır ki, onun Allahı var, onun peyğəmbəri var. Bu, insanı bəndə olmağa gətirib çıxarır. Bu, insanın Allahın bəndəsi olmasına gətirib çıxarır.

Sual çıxır ki, insanın Allahın bəndəsi olması bu insan üçün, insanın azadlığı üçün, insanın hürriyyəti üçün bir maneçilik törədir, ya yox? Bu sualı da yəqin ki, az eşitməmişik: mən indi Allaha tapınsam, mənim azadlığım aradan gedə və s. Əlbəttə ki, həqiqət bunun tam əksidir. Həqiqi hürriyyət məhz Allaha bəndəliklə əldə edilir. Amma bu barədə gələcək bəhslərdə təfsilatı ilə toxunarıq.

**Allahım! Bizləri Sənə tapınanlardan, əiz Peyğəmbər (s) və Əhli-Beytinin (ə) davamçılarından qərar ver! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 268 (6589) 2 dekabr 2016



# 150 kiloluq uşağı arıqlatmaq üçün banka qoyurlar

150 kilo ağırlığında olan və heç cür çəki verə bilməyən 11 yaşındakı çinli uşağın ənənəvi Çin tibb üsulları ilə arıqlayacağı açıqlanıb. Çinin Changchun şəhərindəki bir xəstəxanada müalicə olunan 11 yaşlı Li Hang aralarında "banka müalicəsi", atəş terapiyası və akupunkturun da olduğu müxtəlif müalicələrdən keçirib. Nadir rast gəlinən Prader-Villi sindromuna yaxalanan Hanq yeməkdən əl çəkə bilmir və sürətli kökəlmədən əziyyət çəkir. Çinin Harbin şəhərindən müalicə məqsədilə Changchunda-kı xəstəxanaya gətirilən balaca uşağa 3 yaşından bəri Prader-Willi sindromu diaqnozu qoyulub. Amma 4 yaşı olanda onun çəkisi 43 kiloya çatıb. Bu isə onun Çindəki eyni yaşlı uşaqlarla müqayisədə iki dəfə kök olması anlamına gəlir. Balaca uşağın 10-dan artıq problemi üzə çıxıb. Bunlar arasında şişmanlıq, yüksək qan təzyiqi, qaraciyər yağlanması kimi xəstəliklər də var. Hanq ötən ilin mart ayında 167 kiloya çatanda isə ailəsi ona diet tətbiq edib və idmana yazdırıb. Amma bu, hər hansı fayda verməyib. Mədəsindən də əməliyyat keçirən Hanq cərrahi müdaxilə nəticəsində 143 kiloya düşüb, amma qısa müddət sonra 150 kiloya qədər artıb. İki ay öncə xəstəxanada müalicə altına alınan Li Hanqın keçən müddət ərzində 15 kilo verdiyi açıqlanıb.

# Gündə 3 stəkan qəhvə içsəniz...

Alimlərə görə, gündə 3 stəkan qəhvə içmək yaddaşsızlıq riskini azaldır. Türkiyənin "Milliyyet" qəzetinin xəbərinə görə, ölçülü miqdarda qəhvə içmək beyində toksonlərin yaranmasına mane olur. Mütəxəssislər illərdir qəhvənin sağlamlığa ziyanlı olub-olmadığını araşdırırlar. Bu yaxınlarda aparılan bir araşdırma isə sübut edib ki, qəhvə hamilə qadınların uşaqlarını itirməsinə və infarkta səbəb olur. Bundan başqa, anksiyete, mədə yanması və menapozda görülen istilənmə hissi də kofe ucbatından baş verir. Amma yeni araşdırma digər bütün araşdırmaları da təhlil edərək, yeni bir nəticə ortaya çıxarıb. Bununla paralel, Avropanın ən böyük 6 qəhvə şirkətinin analizinə görə, qəhvə parkinson və digər nevroloji xəstəliklərin qarşısını alır.



# Qadınlara biznesə başlamaq üçün 10 min dollar lazımdır

**Biznesə başlamaq üçün qadına kişi ilə müqayisədə iki dəfə az resurs lazımdır. Sahibkar fəaliyyətini öyrənən "Global Entrepreneurship Monitor"un məlumatlarına əsasən, 2015-ci ildə ABŞ-da qadınlara öz biznesinə başlamaq üçün kişilərlə müqayisədə iki dəfə az vəsait lazım olub- orta hesabla 10 min dollar.**

Tədqiqatın həmmüəllifi, Babson Universitetinin professoru Donna Kelli qeyd edir ki, şirkəti işə salmaq lazım olanda qadın-sahibkarlar daha enerjili olurlar. ABŞ üzrə statistikaya görə, biznes açan qadınların demək olar ki, yarısı işə 10 min dollardan az büdcə ilə başlayıb. Araşdırma onu da göstərib ki, iş quran qadınlar öz ailə üzvlərinə kişilərdən daha çox arxalanırlar.

Qadınların biznes seçimi də fərqlidir. Zərif cinsin nümayəndələri daha çox müştəriyə yönələn bizes, ticarət müəssisəsi və xidmətləri yaratmağa meylli olurlar. Məsələn, əl işlərindən ibarət məhsulların satışı ilə məşhur "Etsy" onlayn-platformasından bildiriblər ki, bu resursda satıcıların əksəriyyəti - 86%-i qadınlardır. Nəhayət, araşdırmalar göstərir ki, qadınlar adətən biznesə 35-44 yaşadək başlayır, kişilər isə 25-34 yaşlarında.





# Bu idman zalında ancaq qadınlar idman edə biləcək

Uelsin paytaxtı Kardiffdə dünyada ilk dəfə olaraq müsəlman qadınlar üçün idman zalı açılıb. Müsəlmanlarla yanaşı, zala başqa dindən olan qadınlar da gələ bilir. Amma kişilərin içəri girişi qadağandır. Lenta.ru saytının xəbərinə görə, Haya Fitness adlı məkanın təşkilatçıları bildiriblər ki, bura gender məhdudiyyəti tətbiq edilməsi müsəlman qadınlar üçün komfortludur. Bunun sayəsində onlar zalda adi geyimdə, başıaçıq şəkildə idman edə bilirlər. Zalın açılışı 2016-cı ilin yayında olacaq.

2016-cı ilin yanvarında məlum olmuşdu ki, Böyük Britaniya ölkədə yaşayan müsəlman qadınların ingilis dili tədrisi üçün 26.1 milyon avro xərcləməyi planlaşdırır. Ölkənin baş naziri Devid Kameron demişdi ki, bu, onların Britaniya cəmiyyətinə inteqrasiyası və ekstremizmlə mübarizəsinə xidmət edəcək.




QOÇ - Daxili səsiniz qətiyyətli olmağı tələb edirsə, yalnız irəli atılın. Əmin olun ki, şanslar özü gəlib sizi tapacaq. Yaşlı doğmalarınızın fikirlərinə də hörmətlə yanaşın. Uzaq səfərləri təxirə salın.

BUĞA - Fəaliyyətdən daha çox qarşılıqlı münasibətlərə vaxt ayırın. Əgər deyilən istiqamətdə boşluq varsa, tələsin. Savab işlər görün. Vaxt tapıb müqəddəs ziyarətgahlara da getmək olar.

ƏKİZLƏR - Ünsiyyətdə olduğunuz hər kəsin hörmətini qazanmağa çalışın. Kosmik durumun xeyrinizə tənzimlənməsi yarımçıq işlərin həllini sürətləndirməyi tələb edir. Dinə zidd addım atmayın.

XƏRÇƏNG - Müqəddəs dinimizin ənənələrinə hörmətlə yanaşın, hamıya mərhəmət göstərin, xüsusən də sıx təmasda olduğunuz insanlara. O ki qaldı maliyyə durumuna, bu barədə narahat olmayacaqsınız.

ŞİR - İşgüzar sövdələşmələri başa çatdırmaq, yeni layihələri reallaşdırmaq üçün günün şanslarından istifadə edin. Amma hər bir söhbətdə qarşı tərəfi sonacan dinləyib sonra qərar verin.

QIZ - Ötən günlərin gərginliyi nahara qədər davam etsə də, təmkinli olmaqla bu müddəti itkisiz başa vura bilərsiniz. Təcrübəli insanların məsləhətlərinə qulaq asın. Ehtiyac sahiblərinə baş çəkin.

TƏRƏZİ - Ulduzlar ötən günlərdə hamıdan çox yorulduğunuzu bəyan edir. Bu səbəbdən də bu günü istirahətə həsr etməyə çalışın. Əyləncə və qonaqlıqlara vaxt ayırın ki, yorğunluğunuz getsin.

ƏQRƏB - Diş və ya baş ağrılarına mübtəla olmamısınızsa, günün ümumi mənzərəsi sizi qane edəcək. Məhəbbət amilinə isə yalnız söz kimi yanaşmayın. Uzaq olmayan ünvanlara qonaq getmək olar.

OXATAN - Həmkarlarınızla davranışları məcrasından çıxarmasanız, gün ərzində hansısa qanqaraçılığı ilə üzləşməyəcəksiniz. Pulla bağlı narahatçılığınız da qismən səngiyəcək.

OĞLAQ - İxtiyarınızda olan bu təqvimdə fəaliyyətə ara verib tamam fərqli zəmində iş aparmalısınız. Məhəbbət və qohumluq əlaqələrinə də vaxt ayırın. Gün ərzində maraqlı tanışlıqlar da gözlənilir.

SUTÖKƏN - Daxili stresslərinizin çoxalması ətrafda olan hər şeyə narazılığınızı artırıb. Amma bunun yaxşı sonu olmadığı üçün bir qədər genişürəkli olun. Ümidinizi insanlara deyil, Allaha bağlayın.

BALIQLAR - Təxminən saat 13-ə qədər praktiki cəhətdən hər hansı yenilik gözlənilməsə də, sonrakı müddətdə vəziyyətin tam fərqli olacağına inana bilərsiniz. Ürəyinizdəki şübhələri qovun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Burnu şərflə bağlasaq... xəstələnmərik

İsveçrə alimləri sübut ediblər ki, şaxtalı havada burnu şərflə bağlamaq soyuqdəymə riskini azaldır. Bu barədə lenta.ru saytı "The Daily Telegraph"a istinadən xəbər verir. Araşdırmaçılar bildirir ki, hər 5 adamdan biri rinovirus daşıyıcısıdır ki, bu da insanın immun sisteminə olduqca ciddi təsir göstərir.



Bununla yanaşı, alimlər müəyyənləşdiriblər ki, bədənin temperaturu immunitetə daha çox təsir edir, nəinki virusun özü. Bu səbəbdən də orqanizmi çökdürən soyuq havanın burun dəliklərindən içəri girməsinin qarşısını almaq üçün onu şərflə bağlamaq vacib şərtdir. Nəşr xatırladır ki, daha öncə bir qrup həkim insanların xəstələnməməsi üçün onların nazik geyinməsini məsləhət görmüşdü.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750